Günəş Şərqdən doğur!

❒ № 64 (5345), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 14 aprel 2021-ci il (çərşənbə)



## Müqəddəs Ramazan ayı başladı

İlk Əhya gecəsi mayın 1-nə təsadüf edəcək

(Səh.3)

### Günün içindən...



### “Münaqişə həll olunub, biz gələcəyə baxmalıyıq"

Prezident: “İndi bizim Ermənistana qarşı heç bir hərbi planımız yoxdur”

“Ermənilərin Qarabağda məskunlaşdığı ərazilərə qarşı güc tətbiq etmək planımız yoxdur. Dediyim kimi, Qarabağ münaqişəsi bitib, həll olunub”. Bunu Prezident İlham Əliyev dünən ADA Universitetində keçirilən ”Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı konfransda çıxışında deyib.

(səh.2)

### “Türk Şurasına qatılmaq istəyən ölkələr çoxdur"



Ərdoğan: “Bu qurumu beynəlxalq təşkilat halına gətirməyin vaxtı çatıb”

(səh.4)

# Həmsədrlər Ermənistan tərəfinə səsləndi




## “Ərazilərin minalardan təmizlənməsi üçün məlumatların mübadiləsi vacibdir"

**ATƏT Minsk qrupunun həmsədrləri (Rusiya Federasiyasından İqor Popov, Fransadan Stefan Viskonti və ABŞ-dan Endrü Şofer) bəyanatla çıxış ediblər.**

Bu barədə ATƏT-in rəsmi saytı məlumat verir.

(səh.2)

## Akademikin sirli qətli

Ziya Bünyadovun öldürülməsi dövlət quruculuğuna atılan güllə idi

(səh.8)



### ✓ Liderlər telefonla danışıblar

Bayden Putinə üçüncü ölkədə görüş keçirməyi təklif edib

(səh.6)

### ✓ Sülh razılaşmasını hazırlaya bilərlər

Metyu Brayza Minsk qrupunun münaqişədən sonrakı dövrdə missiyasını açıqlayıb

(səh.5)

### ✓ Qadağan olunur

Uşaqları dinə etiqad etməyə məcbur etmək olmaz

(səh.7)

### ✓ Yoluxanların sayı 2400-ü keçdi

34 nəfər vəfat edib,
2 002 nəfər sağalıb

(səh.9)



### “Kəlbəcəri azad etməklə əmimin intiqamını aldıq”

Namizəd Abdullayev Qarabağın xain düşməndən azad edilməsində şücaət göstərib

(səh.9)

## Zamanları gəldi

Bakıdakı Qarabağ atları da öz yurdlarına qovuşacaq

(səh.12)



# "Münaqişə həll olunub, biz gələcəyə baxmalıyıq"

"Ermənilərin Qarabağda məskunlaşdığı ərazilərə qarşı güc tətbiq etmək planımız yoxdur. Dediyim kimi, Qarabağ münaqişəsi bitib, həll olunub". Bunu Prezident İlham Əliyev dünən ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda çıxışında deyib. Ölkə başçısı qeyd edib ki, Rusiya sülhməramlılarının nəzarət etdiyi ərazilərdə yaşayan erməniləri öz vətəndaşlarımız hesab edirik: "Bizim bu günə qədər göstərdiyimiz humanitar yardımlar və logistik dəstək də bu niyyətimizi göstərir".






## Prezident: "İndi bizim Ermənistana qarşı heç bir hərbi planımız yoxdur"

**"Putinlə "İsgəndər-M" raketi ilə bağlı məsələni müzakirə etmişik"**

**Dövlət başçısı vurğulayıb ki, Rusiya Prezidenti Vladimir Putinlə "İsgəndər-M" raketi ilə bağlı məsələni müzakirə edib:** "Mənim tapşırığımla Azərbaycan Müdafiə Nazirliyi fotolarla birlikdə sübutların olduğu rəsmi məktub göndərib. Lakin hələlik biz heç bir cavab almamışıq. Mən öz xalqımdan heç nəyi gizlətmirəm, hesab edirəm ki, Azərbaycan xalqı hər şeyi bilməlidir". Rəsmi İrəvanın raketlər barədə bəyanatını qəribə adlandıran Prezident İlham Əliyev deyib: "Onlar gah partlamamış raketlər haqqında danışır, gah da bunun sirr olduğunu deyirlər. Deməli, hər halda istifadə olunub. Deyə bilərəm ki, bizdə yetərincə məlumat var, amma biz rəsmi açıqlama gözləyirik".

**"Ermənistandakı vətəndaş cəmiyyətləri erməni xalqına həqiqətləri deməyə başlamalıdır"**

**Dövlət başçısının sözlərinə görə, Ermənistandakı vətəndaş cəmiyyətləri özlərində cəsarəti tapmalı, erməni xalqına həqiqətləri deməyə başlamalıdırlar:** "Müharibə artıq tarixə qovuşub, konflikt həll olunub və biz gələcəyə baxmalıyıq. Ermənistanın vətəndaş cəmiyyətindən daha çox şey gözləyirik. Nə hökumət, nə də müxalifət bu gün onlara nəinki Azərbaycan haqqında pozitiv, hətta neytral söz deməyə şərait yaratmaz. Çünki bu, Azərbaycanafobiya konsepsiyasıdır, Azərbaycana qarşı onilliklərlə yaradılmış nifrətin kultivasiyasıdır".

**"Sonadək bizə güclü siyasi və mənəvi dəstək verən qardaş Türkiyəyə minnətdarıq"**

**Prezident bəyan edib ki, müharibənin əvvəlindən sonunadək Azərbaycana güclü siyasi və mənəvi dəstək verən qardaş ölkəmiz Türkiyəyə çox minnətdardır.** Digər üç qonşuya gəldikdə, dövlət başçısının sözlərinə görə, əsas hədəf onların neytral olması idi və bu baş verdi: "Müharibədən sonrakı vəziyyət nümayiş etdirdi ki, indi qonşularımız regional inkişafla bağlı bizim fikirlərimizi paylaşırlar. Yeri gəlmişkən, biz artıq qonşu ölkələrlə regionun necə inkişaf etməli olduğu, nəqliyyat, logistika, enerji əməkdaşlığı, ticarət layihələrinin nə olmağı barədə müzakirə etmişik. Beləliklə, bizim heç bir fikir ayrılığımız yoxdur. Bu düzdür ki, Ermənistan hələ öz siyasətini ictimai şəkildə elan etməyib, amma "defakto" etdikləri düşünürəm ki, qənaətbəxşdir".

**"Pakistanın Azərbaycanı dəstəkləməsi qardaşlığımızın real göstəricisidir"**

**Ölkə rəhbəri bildirib ki, Pakistan qarşıdurmanın ilk günlərindən Azərbaycanı açıq şəkildə dəstəkləyən ölkələr sırasında idi:** "Pakistan son günədək bizim tərəfimizdə olub. Pakistan hökumətinə və xalqına Azərbaycanın ərazi bütövlüyü ilə əlaqəli məsələlərdə nümayiş etdirdiyi davamlı yanaşmaya görə minnətdarlığımı bildirirəm. Pakistan təcavüz və işğala görə Ermənistanla diplomatik əlaqə yaratmayan bir neçə ölkədən biridir. Pakistan kimi çox az ölkə var. Biz buna görə çox minnətdarıq. Bu bizim qardaşlığımızın real göstəricisidir".

**"Ermənistan baş naziri sakitdir, Ermənistan xarici işlər naziri aqressivdir"**

**Prezident deyib ki, Ermənistan əlaqə qurmaq istəyərsə, biz də əlimizdən gələni etməyə hazırıq:** "Azərbaycanlılar və ermənilər necə qarşılıqlı əlaqə qura bilərlər? Mən düşünürəm ki, bu, xeyli dərəcə istəkdən, siyasətçilərin müdrikliyindən asılı olacaq. Hesab edirəm ki, biz burada və İrəvanda körpülər qurmaq üçün fəal olmalıyıq. Əlbəttə ki, Ermənistan tərəfi əgər bunu istəyirsə... Biz onların niyyətlərinin nə olduğunu bilmirik, bu işlənib hazırlanmayıb. Mən bir neçə dəfə aydın şəkildə bildirdim: - Biz hesab edirik ki, münaqişə səhifəsi artıq geridə qalıb. Ermənistan tərəfi ilə sülh razılaşmasının mümkünlüyü barədə biz qarşı tərəfdən bununla bağlı hər hansı mesaj almamışıq. Ermənistan baş naziri sakitdir, Ermənistan xarici işlər naziri aqressivdir. Hazırda Ermənistan Azərbaycana qarşı aqressiv münasibəti aradan qaldıra biləcək durumda deyil. Onlar müharibədə nələrin baş verdiyini xatırlamalıdırlar. Ermənistan müxalifəti panikadadır. Azərbaycanafobiya, Türkofobiya əvvəllər də olduğu kimi, ən böyük məsələdir. Əgər Ermənistanın müsbət siqnalı olarsa, əlaqə qurmaq istəyərsə, biz də əlimizdən gələni etməyə hazırıq".

**"Ermənistanın yeni reallıqlara uyğunlaşması zaman alacaq"**

**Ölkə rəhbəri bildirib ki, Ermənistanın özünü yeni reallıqlara uyğunlaşdırması zaman alacaq. Onlar psixoloji cəhətdən buna**

**"Zəngəzur dəhlizi Türkiyənin razılığı və iştirakı olmadan açıla bilməz"**

**Prezident bildirib ki, Ermənistanda çoxlu ideoloji doqmalar var və Türkofobiya artıq milli siyasət olub, onlar hətta reallıq hissini də itiriblər:** "Bildiyim qədərilə Türkiyə hökuməti çox konstruktiv yolla addımlar atmağı planlaşdırır, ancaq əlbəttə, onlar adekvat cavab verməlidirlər. Ermənistan ilk olaraq nə etməlidir? Onlar Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər, Konstitusiyanı yenidən yazmalıdırlar, yeni

## "Ermənistan əlaqə qurmaq istəyərsə, biz də əlimizdən gələni etməyə hazırıq"

**hazır deyillər:** "Ermənilərlə manipulyasiya edilib, beyinləri yuyulub. Onlar özlərinə heç vaxt sahib olmadıqları saxta tarix yaradıblar. Çox da detallarına varmaq istəmirəm, lakin onların tarixi qəhrəman kimi göstərdikləri də heç öz millətlərinə aid insanlar olmayıb. 20-ci əsrin tarixi isə tamamilə saxta tarixdir. Onlar biri-birini inandırmağa çalışırlar. Ən böyük problem də budur ki, onlar biri-birini inandıra biliblər".

**"Biz Zəngəzur dəhlizinə qayıdırıqsa, bu yolu istifadə ediriksə, niyə də İrəvana qayıtmayaq?"**

**Ali Baş Komandan deyib ki, gənc nəsil Zəngəzurun tarixi Azərbaycan ərazisi olmasını bilməlidir:** "Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu bir həqiqətdir. 20-ci əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar. Bu, faktdır. Lakin o demək deyil ki, bizim ərazi iddialarımız var. Mən demişəm, bəli, biz oraya qayıdacağıq. Mən deməmişəm ki, biz oraya tankla qayıdacağıq. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq? Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm".

Konstitusiya qəbul etməlidirlər. Mən onlara Türkiyəyə olan ərazi iddialarını Konstitusiyadan çıxarmaq üçün yaxşı məsləhət verə bilərəm. İnanmıram ki, hansısa ölkənin Konstitusiyasında başqa ölkəyə qarşı ərazi iddiaları var. Düşünürəm ki, bu, çox qeyri-adi haldır". Dövlət başçısı ermənilərin qondarma "soyqırım"la əlaqəli saxta tarixlərinin gerçəkliklə heç bir əlaqəsi olmadığını bildirib: "Türkiyə hökuməti bir neçə dəfə bu məsələyə obyektiv, qərəzsiz baxmaq üçün birgə tarixçi qruplarının yaradılmasını açıq şəkildə təklif etdi. Lakin ermənilər etiraz etdi, çünki onların siyasi dividend əldə etmək üçün bu saxta tarixə ehtiyacları var. Bildiyiniz kimi, bu gün biz əlaqələrin, xüsusilə də Zəngəzur dəhlizinin açılmasını müzakirə edirik. Zəngəzur koridoru Türkiyənin razılığı və iştirakı olmadan açıla bilməz. Türkiyə üç ölkənin baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupunun iştirakçısı deyil. Ancaq müzakirə etdiyimiz məsələlərə dair Türkiyəyə tərəfimizdən məlumat verilir. Ermənistan əlaqələrlə bağlı çətinliklərə son qoymaq, tranzit ölkəyə çevrilmək istəyirsə, bunu yalnız Türkiyə təmin edə bilər. Ermənistan tranzit ölkəyə çevrilmək üçün hər hansı fürsət istəyirsə, ünsiyyətdəki çətinliklərə son qoymaq istəyirsə, bunu yalnız Türkiyənin təmin etməsi mümkündür. Bildiyim qədərilə Türkiyə hökuməti buna hazırdır. Top yenidən Ermənistan tərəfindədir".

**"Hər hansı revanş niyyətinin qarşısı sərt şəkildə alınacaq"**

**Dövlət başçısı vurğulayıb ki, Ermənistan ordusunun Rusiya ilə birlikdə modernləşdirilməsi planları suallar doğurur:** "Biz öz mövqeyimizi rusiyalı tərəfdaşlarımıza bildirmişik. Bu, nə üçün edilir?". Rusiyanın sülhməramlı kontingenti regionu tərk edəndən sonra nə olacaq barədə suala cavab verən dövlətimizin başçısı deyib ki, bizim Tovuzda, Zəngilanda Ermənistanla sərhədlərimiz var: "Sərhəd qoşunlarımız Ermənistan tərəfinin bilavasitə yaxınlığındadır. İnsidentlər varmı? Yoxdur. Ermənistan ordusu yoxdur, mənəvi cəhətdən sarsılıb, bizim qoşunlarımız beş metrlikdə dayanıblar. Lakin bizim heç bir hərbi planımız yoxdur".

**"Ermənistan tərəfindən revanş cəhdləri riskləri sıfır olmalıdır"**

**Ölkə başçısı qeyd edib ki, Ermənistan tərəfindən revanş cəhdləri riskləri sıfır olmalıdır:** "İnkişaf üçün Azərbaycan daxilində, eləcə də sərhədlərdən kənarda stabilliyə ehtiyacımız var. Bizim əsas narahatçılığımızdan biri risklərlə bağlıdır və onları minimallaşdırmaq üçün addımlar atacağıq. Regionda əməkdaşlıq yaratmağımız beynəlxalq uğurumuzdur. Buraya Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İran üçtərəfli əməkdaşlığı daxildir. Beləliklə, bu, stabilliyə töhfədir. Əlbəttə ki, Ermənistan tərəfindən revanş cəhdləri riskləri sıfır olmalıdır".

**Prezident bəyan edib ki, atəşkəs əldə olunmasına baxmayaraq, münaqişə ilə bağlı çoxlu suallar qalmaqdadır:** "Müharibədən sonra vəziyyət dəyişib. Atəşkəs əldə olunmasına baxmayaraq, münaqişə ilə bağlı çoxlu suallar qalmaqdadır. 30 ildir, Ermənistanın işğalından əziyyət çəkən Azərbaycan xalqının regionda marağını, eləcə də onların həmrəyliyini görürük. Biz münaqişədən sonrakı mərhələ barədə danışmazdan əvvəl başa düşməliyik ki, bu ərazilər otuz ildir işğal altında idi. Biz xatirələri, ailə üzvlərini itirən insanların və həmin ərazilərdə fundamental yaşamaq hüququ olan insanların bu hüquqdan məhrum edilməsini yaddaşlardan silə bilmərik".

**"ATƏT-in Minsk qrupundan regionda dinc həyatın nizamlanması üzrə öz təkliflər gözləyirik"**

**Ölkə rəhbəri diqqətə çatdırıb ki, ATƏT-in Minsk qrupu regionda dinc həyatın daha da nizamlanması üzrə öz təkliflərini təqdim edəcək:** "Hesab edirəm elə sahələr var ki, onlar orada münaqişədən sonrakı vəziyyətə təsir göstərməkdə rol oynaya bilərlər. Münaqişənin həllinə kömək edən qrup kimi yox, çünki münaqişə artıq həll olunub. Ermənistan ilə sülh razılaşmasından danışanda burada beynəlxalq aktorlar üçün çoxlu fəaliyyət sahələri yarana bilərdi - demarkasiya, delimitasiya, qarşılıqlı fəaliyyət. Ümidvaram ki, Minsk qrupunun nümayəndələri tezliklə Azərbaycana bir sıra təkliflərlə gələcəklər və biz bu təklifləri diqqətlə öyrənəcəyik".

**İsmayıl**

# Ermənilər informasiya müharibəsini gücləndiriblər

## *Bu yalanlara qarşı ciddi Qarabağ informasiya mərkəzi yaradılmalıdır*

Aprelin 13-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın gündəliyi təsdiq edildikdən sonra cari məsələlərin müzakirəsinə başlanılıb. Plenar iclasda Hesablama Palatasının illik hesabatı da dinlənilib və qəbul olunub.



**"Qanunsuz tikilən evlərlə bağlı problemlər həll olunmalıdır"**

**Millət vəkili Fazil Mustafa vurğulayıb ki, qanunsuz tikilən evlərlə bağlı problemlər həll olunmalıdır. Deputat bildirib ki, sosial şəraitlə əlaqədar insanlar yaşadığı yerləri tərk edir:** "Bakıya girəndə Sulutəpədən başlamış, şəhərin bütün giriş-çıxışlarına baxanda Bakı bir gecəqondu şəhərini xatırladır. Bunu dəyişməliyik. Bizim qanunsuz nikah məsələsinə baxışımız necə olubsa, qanunsuz evlərə də münasibətimiz elə olmalıdır. Bu məsələdə qurumlararası münasibətlər acınacaqlı vəziyyətdədir. Bələdiyyələrin qərarı keçərli deyilsə, onda hansı sənəd burada əsas götürülə bilər? Yüzlərlə qanunsuz sərəncam Şəhərsalma və Arxitektura Komitəsinə miras qalıb. Rayonlarda elə vəziyyət yaradılmalıdır ki, insanlar dədə-baba yurdlarında yaşasınlar. Bu, ciddi problemdir və həllini tapmalıdır".

**"Dövlət orqanları cərimələrin təyin olunmasına şirnikləndirilməməlidir"**

**Milli Məclisin üzvü Qüdrət Həsənquliyev deyib ki, Azərbaycanda 8 istintaq orqanı var və bu orqanların qanunlarına dəyişiklik etmək lazımdır:** "Dəyişiklik olmalıdır ki, bu güzəştləri onlara da şamil edək. Sabah məhkəmələr təşəbbüslə çıxış edəcək ki, hansısa cərimələrdən gəlirlərin bəzi hissəsi onlara getsin. Ümumiyyətlə, bundan imtina etmək lazımdır. Biz dövlət orqanlarını cərimələrin təyin olunmasına şirnikləndiririk. Bundan imtina edilməlidir". Deputat bildirib ki, Azərbaycanda prokurorluq orqanlarında qəbul qaydaları çox çətindir: "Avropa ölkələrində gənc hüquqşünasları prokurorluq orqanları ilə işləməyə dəvət edirlər. Amma bizdə o qədər mərhələlər var ki... Növbəti oxunuşlara qədər biz bu məsələni müzakirə etməliyik. Ümumiyyətlə, dövlət qulluğuna qəbul qaydaları da sadələşdirilməlidir. Test imtahanı verən şəxslər işə qəbul olunmalıdır. Bundan sonra olanlar süni əngəllərdir. Biz gənclərimizin işlə təmin olunmasını asanlaşdırmalıyıq".

**"Rayonlarda işsizlik problemi həll olunmayıb"**

**Deputat Sabir Rüstəmxanlı bildirib ki, şəhid ailələrinin qələbədən böyük təskinliyi yoxdur.** Ancaq qələbənin möhkəmləndirilməsi üçün çox iş görülməlidir: "Biz qələbə eyforiyası ilə yaşadığımız bu vaxtlarda ermənilər bizə qarşı informasiya müharibəsini gücləndirməkdədir. Bu gün Azərbaycanda ciddi informasiya mərkəzinin yaradılmasına ehtiyac var. Adı Qarabağ informasiya mərkəzi ola bilər. Bütün dünyada bizə qarşı gedən erməni yalanlarına bu informasiya mərkəzi vasitəsilə vaxtında cavab verməliyik. Bu işdə peşəkarlar var. Dünya ölkələrində ermənilərin yaydığı bütün yalanlara cavablar hazırlanmalı və müxtəlif dillərə tərcümə edilməlidir". S.Rüstəmxanlı çıxışında rayonlarda işsizlik probleminin olduğunu da söyləyib: "Keçən il demişdim ki, Kür quruyur, acınacaqlı vəziyyətdədir. Nazirlər Kabinetindən mənə dedilər ki, kompleks tədbirlər görülür. Bəs hardadır bu kompleks tədbirlər? Sadəcə, Neftçala şəhərinə su çəkildi, amma kəndlərə yox. Kəndlərdə şor sudan istifadə olunur. Kür boyu çoxlu balıq nohuru var. Biz insanları məcbur edirik ki, insanlar şor su, balıqlara şirin su içsin. Suvarma sistemini köhnə sistemdən müasir sistemə keçirməliyik".

**"Mülkiyyət münasibətlərini səhmana salmaq lazımdır"**

**Deputat Əli Məsimli qeyd edib ki, Hesablama Palatasının hesabatında subsidiyalara geniş yer verilib.** Parlament üzvü vurğulayıb ki, Hesablama Palatası Kənd Təsərrüfatı Nazirliyində 79 nöqsan aşkarlayıb: "Həmin nöqsanların 18-i subsidiya, 7-si mineral gübrələrlə bağlıdır. Bütövlükdə fəaliyyətimizdə nəticəni yaradan səbəbə qarşı mübarizəni gücləndirməliyik. Aqrar sahədə torpaq münasibətləri səhmana salınmadıqca, bu nöqsanlar qalmağa davam edəcək. Kənd təsərrüfatında çalışanların xeyli hissəsinin torpaq mülkiyyəti ilə bağlı problemi var. Buna görə də onlar subsidiya ala bilmirlər. Mülkiyyət münasibətlərini səhmana salmaq lazımdır. Subsidiya ilə bağlı problem bundan sonra həllini tapa bilər. Çağırış edirəm ki, bu problemi Milli Məclis və Hesablama Palatası birlikdə aradan qaldırsın".

**"Bəzi sahələrdə maliyyə intizamı gücləndirilməlidir"**

**Millət vəkili Tahir Mirkişili bəyan edib ki, palatanın verdiyi təkliflərin hökumətin qərarlarında öz əksini tapması Milli Məclis və hökumət arasında əməkdaşlığın bariz nümunəsidir:** "Bəzi sahələrdə - məsələn, dövlət satınalmalarında, müəyyən edilən nöqsanlar bu sahələrdə daha ciddi tədbirlərin görülməsini zəruri edir. Maliyyə intizamı həmin sahələrdə gücləndirilməlidir. Dövlət büdcəsi genişlənməkdədir. Hesabatda rast gəlmədiyimiz bələdiyyələrin də fəaliyyətinin audit olunması tərəfimizdən palataya tövsiyə olunub. Palatanın fəaliyyətində istinad edəcəyi yeganə ən güclü mənbə qanunlar və qərarlardır. Dövlət satınalmaları ilə bağlı yeni qanunun hazırlanması artıq bitmək üzrədir".

**İsmayıl Qocayev**

## Həmsədrlər Ermənistan tərəfinə səsləndi

### "Ərazilərin minalardan təmizlənməsi üçün məlumatların mübadiləsi vacibdir"




**ATƏT Minsk qrupunun həmsədrləri (Rusiya Federasiyasından İqor Popov, Fransadan Stefan Viskonti və ABŞ-dan Endrü Şofer) bəyanatla çıxış ediblər.**

Bu barədə Trend ATƏT-in rəsmi saytına istinadən məlumat verir.

Həmsədrlər atəşkəs rejiminin qorunub saxlanılmasını məmnunluqla qeyd edirlər və tərəflər arasında 10 noyabr 2020-ci il tarixində əldə edilən razılaşmanın (Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin üçtərəfli bəyanatı - red.) icrasını yaxından izləyirlər.

Həmsədrlər tərəflərə qalan problemli məsələlərin həlli və davamlı sülhə kömək edən qarşılıqlı etimad mühitinin yaradılması üçün əlavə səylərin göstərilməli olduğunu xatırladıblar. Bunlara, xüsusilə: münaqişə bölgələrinin effektiv şəkildə minalardan təmizlənməsi üçün lazım olan bütün məlumatların mübadiləsi ilə bağlı məsələlər; dini və mədəni irsin saxlanılması və qorunması; və münaqişədən təsirlənən icmalar arasında birbaşa təmasların və əməkdaşlığın qurulması, həmçinin insanlar arasında etimadın möhkəmləndirilməsi üçün digər tədbirlər daxildir.

Həmsədrlər həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin davam edən fəaliyyətlərinə və missiyasının mümükün genişləndirilməsinə güclü dəstəyini ifadə edir və tərəfləri onun səylərinə tam dəstək göstərməyə çağırıblar. Həmsədrlər, qiymətləndirmə aparmaq üçün bölgəyə, o cümlədən Qarabağ və ətraf rayonlara işgüzar səfərləri bərpa etməyə hazır olduqlarını vurğulayıblar.

# Müqəddəs Ramazan ayı başladı

## *İlk Əhya gecəsi mayın 1-nə təsadüf edəcək*



**Azərbaycanda müqəddəs Ramazan ayı başlayıb.**

**Bu il üfüqdə Hilalın (təzə Ayın) aprelin 13-ü Şam namazı ərəfəsində görünəcəyinə görə Ramazan ayının 1-i miladi təqvimlə 14 aprelə təsadüf edir.**

Ramazan ayının builki təqviminə görə ilk Əhya gecəsi mayın 1-nə, ikinci Əhya gecəsi mayın 3-nə, üçüncü Əhya gecəsi mayın 5-nə, sonuncu Əhya gecəsi isə mayın 9-na təsadüf edəcək.

Ramazan ayında insanlar oruc tutmalı, xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutmalıdırlar. Xəstə olan, habelə zəifləyərək xəstəliyə düçar olma ehtimalı olan insanların oruclarını başqa vaxtda tutmaları məqsədəuyğundur. Bu şəxslər sağaldıqdan sonra, sağlam halda gələn Ramazana kimi öz oruclucq ibadətlərini tamamlaya bilərlər.

Bu ay ərzində xeyriyyə əməlləri, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində kömək etmək Allah nəzərində bəyənilən əməllərdəndir. Bu ayda ən böyük savab - daha çox ibadət etmək, Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm, irfanla məşğul olmaqdır.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Adambaşına 5-10 manat arası fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və hər bir imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verilməsi vacibdir.

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının Ramazan ayının başlanması ilə əlaqədar qəbul etdiyi builki fətvada qeyd edilir: "Ramazan ayına bütün dünyada hələ də səngiməyən virus təhlükəsi şəraitində daxil oluruq. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan bu bəlanın aradan qaldırılması yönündə dövlətimiz böyük səylə çalışdığı bir zamanda biz, din xadimləri dövlətimizin insan həyatının qorunması məqsədilə həyata keçirilən vaksinləşmə tədbirlərini dəstəkləyirik. Vaksinləşmə özümüzün və ətrafımızdakıların səhhəti baxımından həyati zərurət daşıyan vacib addım, şəriət baxımından məqbul əməldir. Bu caiz məqamın reallaşmasında fəal iştirak edən biz, din xadimləri öz nümunəmizlə bütün dindarları bu mühüm kampaniyada iştiraka dəvət edirik. Ramazan ayı boyunca bu mühüm proses davam etməlidir. Yüksək din alimlərinin rəyinə görə, Ramazan ayı boyunca oruclu şəxsin vaksin vurdurması orucu batil etmir.

Yoluxmaların artma təhlükəsi olduğundan, xüsusi karantin rejimi dövründə adət-ənənələrimizə söykənən kütləvi dini mərasimlərin müvəqqəti olaraq keçirilməməsini tövsiyə edir, İftar süfrəsinin hər bir evdə yalnız ailə üzvlərinin iştirakı ilə açılmasına çağırırıq. Bir daha bildiririk ki, bütün bu tövsiyələr hazırda tüğyan edən xəstəlik səbəbindən müvəqqəti səciyyə daşıyır".

*Qeyd edək ki, Eydül-Fitr-Ramazan bayramı Şəvval ayının 1-i-Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq may ayının 13-nə təsadüf edəcək.*



# Lukaşenko da bizim adamdır

## "Post-sovet məkanında dostlarımız nə qədər çox olarsa, o qədər yaxşıdır"

Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycanda rəsmi səfərdədir. Belarus Prezidentinin mətbuat xidmətinin məlumatına görə, iki gün davam edəcək səfər çərçivəsində Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevlə iki görüş keçirəcək. İlk görüş səfərin birinci günü baş tutacaq. Bu qeyri-formal görüşdə liderlər Azərbaycanla Belarus arasındakı münasibətlərin əsas istiqamətlərini və strateji qarşılıqlı münasibətləri müzakirə edəcəklər.

Danışıqların rəsmi hissəsi isə aprelin 14-də baş tutacaq. Dövlət başçılarının görüşü təkbətək və geniş tərkibli nümayəndə heyətinin iştirakı ilə keçiriləcək. Görüşdə ticari-iqtisadi əlaqələrin genişləndirilməsi və əməkdaşlığın yeni məzmunu müzakirə olunacaq. Tərəflər sənaye-kooperasiya məsələlərini, qida istehsalı və təchizatı, kənd təsərrüfatı məhsullarının emalı sahəsində cari və perspektivli layihələrin reallaşmasını nəzərdən keçirəcəklər. Həmçinin səhiyyə, elmi-texniki, təhsil və turizm sahələrində əməkdaşlıq da müzakirə olunacaq.

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında görüşün əhəmiyyətini belə qiymətləndirdi:** "Belarusda son prezident seçkilərindən sonra Qərbin tətbiq etdiyi məhdudiyyətlər ölkə üçün müəyyən çətinliklər yaradır. Xüsusilə iqtisadi böhran yaşanmaqdadır. Belarusun dostların köməyinə ehtiyacı var.

Əlbəttə, görüşdə iqtisadi əməkdaşlıq, o cümlədən enerji daşıyıcılarının və ələlxüsus neftin Belarusa satışı müzakirə oluna bilər. Çünki Rusiya ilə Belarus arasında münasibətlərin loyallaşması sadəcə söz səviyyəsindədir. Əslində isə Kremlin Belarusa güzəştə getmək fikri yoxdur.

Amma Azərbaycana inanılır, etimad göstərilir. Ona görə ki, rəsmi Bakı Belarusa hər zaman öz dost əlini uzadıb. İkinci bir tərəfdən, müdafiə sənayesi ilə bağlı bəzi məqamlar gündəmə gələ bilər. Bilirsiniz ki, Azərbaycan Belarusdan müasir raket kompleksləri alıb. Və biz həmin silahların effektivliyini 44 günlük savaşda gördük.

Belarus kimi dost dövlətlər müharibə vaxtı birmənalı olaraq Azərbaycanı dəstəklədilər. Bu nöqteyi-nəzərdən sözügedən səfəri dostluq görüşü hesab edirəm. Ümumiyyətlə, post-sovet məkanında dostlarımız nə qədər çox olarsa, o qədər yaxşıdır".

**Kənan Novruzov**



# İlham Əliyev ilə Aleksandr Lukaşenkonun qeyri-rəsmi görüşü olub

**Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko dünən Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Belarus Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Belarus Respublikasının Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşılayıblar.

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında qeyri-rəsmi görüş keçirilib.

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb.

# "Türk Şurasına qatılmaq istəyən ölkələr çoxdur"

## Ərdoğan: "Bu qurumu beynəlxalq təşkilat halına gətirməyin vaxtı çatıb"



**"Tam və müşahidəçi qismində Türk Şurasına qatılmaq istəyən çox sayda ölkələr var. Artıq bu qurumu beynəlxalq təşkilat halına gətirmək vaxtı gəlib çatıb".**

APA-nın yerli bürosunun məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonrakı açıqlamasında bildirib.

Aprelin 10-da telekonfrans yolu ilə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv olan dövlət başçıları ilə keçirilən sammitdən danışan Türkiyə Prezidenti deyib ki, son təbirdə səhiyyədən ticarətə qədər genişmiqyaslı əməkdaşlıqla bağlı müzakirələr aparılıb: "Türk Şurasının nəzdindəki bir çox strukturlarla görülən işlər daha güclü bir strukturlaşmaya ehtiyac olduğunu ortaya qoyur".

*R.T.Ərdoğan deyib ki, bu ilin noyabr ayında İstanbulda Türkiyənin ev sahibliyi ilə keçirilən Türk Şurasının 8-ci Fövqəladə iclasında bu məsələ bir daha nəzərdən keçiriləcək:* "İstanbulda prestijli bir tarixi bina şuranın və gələcəkdə qurulacaq təşkilatın idarə edilməsi üçün hazırlanıb".

# Məhkəmə hakimi vəfat edib



**Azərbaycanda məhkəmə hakimi vəfat edib.**

"Report" xəbər verir ki, Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi Rəşid Hüseynov 62 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, əvvəllər prokurorluq orqanlarında çalışmış R.Hüseynov 2008-2011-ci ilərdə Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin hakimi, 2011-2013-cü illərdə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi, 2013-cü ildən isə Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi idi.

# Rusiyanın hoqqaları bitmir

## Qarabağda sülhməramlıya artıq heç bir ehtiyac yoxdur

Azərbaycan dövlətini və ictimaiyyəti ən çox narahat edən məqamlardan biri də Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan bölgəsinə qanunsuz səfərlərin olmasıdır. Rəsmi Bakı Rusiya və Yerevana bununla bağlı xəbərdarlıq etsə də, əfsuslar olsun ki, hələ də qanunsuz səfərlərin şahidi oluruq. Düzdür, Rusiya sülhməramlıları sərt xəbərdarlıqdan sonra bölgəyə əcnəbiləri buraxmır.



Lakin rusların və Ermənistan rəsmilərinin icazəsiz gediş-gəlişinə göz yumulur. Məsələ ondadır ki, Yerevandan Xankəndinə gələnlər orada separatçılarla "rəsmi şəxslər" kimi görüşür və müəyyən "müzakirələr" aparırlar. Ötən gün İrəvan meri Ayk Marutyan da Azərbaycanın Qarabağ bölgəsinə, rus sülhməramlılarının məsuliyyət zonasına gəlib. Marutyan Xankəndində özünü "şəhər meri" kimi təqdim edən David Sarkisyan adlı şəxslə görüşüb. Həyasızcasına bu görüşü "iki paytaxt arasındakı əlaqələr" kimi təqdim edib. Rus sülhməramlıları 10 noyabr 2020-ci il bəyanatının şərtlərinin yerinə yetirilməsi üçün erməni tərəfinə tələblər ürəli sürmək əvəzinə yenidən həyasız torpaq iddialarına əsas verən addımlara şərait yaradır. Üçtərəfli bəyanata görə, Ermənistan silahlıları Azərbaycan ərazilərindən çıxmalı, onların yerinə rus sülhməramlıları yerləşməliydi. Rus sülhməramlıları 6 aydır yerləşsə də, erməni qanunsuz silahlı birləşmələri hələ də Azərbaycan ərazilərini tərk etməyib. Eyni zamanda, Laçın dəhlizi yalnız Qarabağda yaşayan erməni əhalinin Ermənistanla əlaqəsi üçün nəzərdə tutulsa da, Ermənistan bu dəhlizdən Azərbaycanın ərazisini pozmaq üçün gen-bol istifadə edir və rus sülhməramlıları da buna şərait yaradırlar.

## "Azərbaycan öz sərhədlərini və daxili sabitliyini qorumaq gücündədir"



**Narazılıq doğuran məqamları "Şərq"ə şərh edən Azərbaycan Demokrat Partiyası sədrinin birinci müavini Həsrət Rüstəmov deyib ki, Rusiya 1990-cı ilin əvvəlində işğalına fəal kömək etdiyi Azərbaycan torpaqlarının bir hissəsinin rəsmi Bakının nəzarətinə keçməsinə imkan vermir.** Partiya funksionerinin sözlərinə görə, təəssüf ki, yerləşdiyimiz bölgədə Rusiyanın hərbi-siyasi təsirini hələlik neytrallaşdırmaq mümkün deyil: "Bu təsir 44 günlük müharibə zamanı qardaş Türkiyə tərəfindən qismən neytrallaşdırılsa da, içimizdəki xainlər səbəbindən tam sonlanmadı. Rusiyanın BMT-nin tanıdığı Azərbaycan sərhədləri daxilində həyata keçirdiyi bütün hərəkətlər "sülhməramlılıq"dan uzaqdır. Qarabağda sülhməramlıya əslində heç bir ehtiyac yoxdur. Azərbaycan öz sərhədlərini və daxili sabitliyini qorumaq gücündədir. Rusiyanın son hoqqaları Şuşada qalıqları tapılan "İsgəndər" raketi ilə bağlı Azərbaycanın prinsipial mövqeyinə, guya, "cavab" kimi ortaya atılıb. Hər şeyə rəğmən, Rusiya mütləq cavab verməlidir. Moskva beynəlxalq normalara riayət etmək məcburiyyətindədir. Fikrimcə, hazırkı vəziyyətdə Azərbaycan BMT-yə Rusiyanın sülhməramlı statusuna sığmayan hərəkətləri ilə bağlı müntəzəm məlumatlar verməlidir. Həmçinin, Kremlə etiraz notaları göndərməli və üçtərəfli bəyanatda qeyd edildiyi kimi Türkiyənin prosesdə üstün rol oynamasına çalışmalıdır".

**İsmayıl Qocayev**

# İran sərhəddində baş verənlərdən narahatdır

## “Bütövlükdə region yenidən qurulur. Rəsmi Tehran yenidənqurmada iştirak etmək istəyir”



Rusiya və İranın XİN başçıları Qarabağla bağlı məsələni müzakirə ediblər. Rusiya Xarici işlər naziri Sergey Lavrov iranlı həmkarı Məhəmməd Cavad Zəriflə danışıqlardan sonra keçirilən mətbuat konfransında bir sıra məqamlara toxunub.

S.Lavrov Rusiya və İran Qarabağdakı münaqişənin uzunmüddətli siyasi və diplomatik həllinə nail olmağın vacibliyini vurğulayıb. Nazirlər bölgə ölkələrinin bu prosesdəki rolunu nəzərdən keçiriblər.

S.Lavrov qeyd edib: ”Biz Rusiyanın atəşkəsin davamlı olmasını təmin edən vasitəçilik səylərini nəzərə alaraq Qarabağdakı vəziyyəti müzakirə etdik. Münaqişənin nəticələrinin aradan qaldırılmasının və ümumiyyətlə, uzunmüddətli siyasi və diplomatik həllinin ədalətli əsasda əldə edilməsinin vacibliyini vurğuladıq və bölgə ölkələrinin bu prosesdə oynaya biləcəyi rolu nəzərdən keçirdik”.

Azərbaycan Prezidenti Qarabağ məsələsinin həll edildiyini, münaqişənin tarixə qovuşduğunu dəfələrlə vurğulayıb. Ölkə başçısı bu məsələni davamlı şəkildə bildirsə də, nədənsə, İran və Rusiya bölgədəki durumu yenidən müzakirə etməyə ”can atır”.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli ”Şərq”ə açıqlamasında bildirib ki, İran yeni yaranan reallıqla bağlı ümumi vəziyyəti müəyyən etmək istəyir:** ”Çünki müharibənin nəticələrindən biri ondan ibarətdir ki, Rusiya Qafqazda daha da gücləndi. Amma bununla paralel olaraq İranın milli maraqlarına zidd olan hadisələr - Azərbaycanın qalib gəlməsi və Türkiyənin hərbi baxımdan Qafqazda güclənməsi meydana çıxdı. Bu baxımdan İran sərhədlərinin kənarında baş verənlərə görə çox narahatdır. Hesab edirəm ki, İran təhlükəsizlik qayğılarını daha çox Rusiya ilə bölüşmək istəyir. Ona görə də bölgədə Türkiyənin əleyinə Rusiyanın ümumi maraqlarından birlikdə istifadəni həyata keçirməyə çalışır. Digər yanaşma odur ki, bütövlükdə region yenidən qurulur. İran isə bu yenidənqurmada iştirak etmək istəyir”.

*“Tehran təhlükəsizlik qayğılarını daha çox Rusiya ilə bölüşmək istəyir”*

Ə.Əlibəylinin fikrincə, önəmli fakt bundan ibarətdir ki, müharibə zamanı İran Ermənistanı dəstəklədi: ”İndi isə Ermənistan hakimiyyəti İrandan haqq-hesab istəyir ki, müharibədə dəstək yetəri səviyyədə olmayıb və məğlubiyyətə uğrayıblar. Nazirlər revanş məsələsi, Ermənistanın yenidən qurulması və qlobal təhlükəsizliklə bağlı danışıqlar aparıb. Həmçinin İranın Cənubi Qafqazda maraqlarına hansı zərbə endirilə bilər və Rusiyanın bu zərəri nə cür qarşılaya bilməsi də müzakirə olunur”.

**Yeganə Bayramova**

## Sülh razılaşmasını hazırlaya bilərlər

Metyu Brayza Minsk qrupunun münaqişədən sonrakı dövrdə missiyasını açıqlayıb



**ATƏT-in Minsk qrupunun münaqişədən sonrakı dövrdə missiyası olmalıdır.** Bunu ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza jurnalistlərə bildirib.

”Prezident İlham Əliyevin artıq təklif etdiyi kimi, Minsk qrupu münaqişədən sonrakı dövrdə nələr edə biləcəyi barədə fikirlər təqdim etməlidir. Azərbaycanın nəzər nöqtəsindən münaqişə artıq həll edilib. Əslində görülməli hələ çox iş var. Bura həm Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası, həm də 10 noyabr bəyanatının qalan məsələlərinin icrası daxildir. Və ya Prezident Əliyevin təklif etdiyi kimi, Azərbaycanla Ermənistan arasında yalnız Dağlıq Qarabağ baxımından deyil, ümumiyyətlə, yekun sülh razılığına nail olmaq üçün müəyyən danışıqlar aparıla bilər”, - o deyib.

# Rəsmi Bakı tam haqlıdır

## *“İsgəndər M” raketləri ciddi məsələdir, Rusiya da cavab verməlidir*

Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda mühüm məqamlara toxunub. Dövlət başçısı növbəti dəfə Şuşaya atılan "İsgəndər M" raketlərindən bəhs edib. Ölkə rəhbəri Ermənistanın "İsgəndər" raketindən istifadə etməsini hərbi cinayət adlandırıb:

”Movsesyan ”İsgəndər”ləri bizə qarşı istifadə etdiklərini etiraf edib. Sonra isə ”İsgəndər”dən istifadə edilməsinin videogörüntüsünü əldə etdik. Mən bunu araşdırmaq üçün tapşırıq verdim və onları tapdıq. Biz onları niyə o vaxt tapmadıq? Çünki Şuşada müharibədən dərhal sonra qar yağdı və hətta yanvar-fevral aylarında orada olduğum zaman da qar yağırdı. Sonra qar əridi və biz onları tapdıq”. Prezident ”İsgəndər” raketinin qalıqlarının tapılmasından sonra baş verənlərin qəribə olduğunu da vurğulayıb. Bildirib ki, Ermənistanın Baş Qərargahının rəisi bu mövzunu şərh edə bilməyəcəyini deyib: ”Bunu necə başa düşə bilərik? Cavab ya ”hə”, ya da ”yox” olmalıdır. Əlbəttə, ”hə”. Belə olmasaydı, ”İsgəndər”dən istifadə etmədiklərini deyərdilər”. Dövlət başçısı deyib ki, rusiyalı həmkarı Vladimir Putinlə Qarabağda ”İsgəndər-M” raketlərinin qalıqlarının aşkar olunması barədə məlumatı müzakirə edib: ”Aprelin 1-də mənim rusiyalı həmkarım Vladimir Putinlə telefon danışığım olub. Adətən, bildiyiniz kimi, telefon danışıqlarının məzmunu iki tərəf arasında razılaşdırılır, birgə, razılaşdırılmış məlumat verilir. Lakin mən Azərbaycan xalqından heç nə gizlətmirəm və hesab edirəm ki, Azərbaycan xalqı hər şeyi bilməlidir. Biz bu məsələni müzakirə etmişik”. Xatırladaq ki, ölkə rəhbərinin bəyanatından dərhal sonra Rusiya tərəfindən də açıqlama gəlib. Kremlin mətbuat katibi Dmitri Peskov məsələnin Rusiyada araşdırıldığını söyləyib. Onun sözlərinə görə, Moskva və Bakı ”İsgəndər-M”lə bağlı məsələdə sıx dialoq vəziyyətindədir: ”Dağlıq Qarabağda ”İsgəndər-M” raketinin qalıqlarının aşkarlanması barədə Bakının məlumatı ilə bağlı Rusiya və Azərbaycan hərbçiləri sıx dialoq vəziyyətindədir. Bütün müvafiq məsələlər müzakirə olunur”.

Qeyd edək ki, həm Ermənistan, həm də Rusiyanın rəsmi məlumatlarında bir neçə il əvvəl erməni ordusuna ”İsgəndər E” raketlərinin satıldığı əks olunurdu. Şuşada ”İsgəndər”in M tipli növünün tapılması isə ortaya yeni suallar qoyur. Raketlərin Rusiya tərəfindən Ermənistana gizli yolla satılması və ya hansısa yolla İkinci Qarabağ müharibəsində istifadə edilməsi ciddi məsələdir. Çünki kifayət qədər ağır silah növü sayılan və satılmasına icazə verilməyən, hədəfi vurma məsafəsi 500 km-ə qədər olan ”İsgəndər M” raketləri tam gücü ilə partlasaydı, müharibənin aparıldığı kiçik ərazidə ciddi fəlakətə səbəb ola bilərdi. O səbəbdən ”İsgəndər M” raketlərinin Ermənistana verilməsi və ya bu raketlərin hansısa yolla Şuşaya atılması məsələsi Azərbaycan ictimaiyyətinin haqlı narahatlığına səbəb olub. Məlumat üçün bildirək ki, bir müddət əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan İkinci Qarabağ müharibəsində ”İsgəndər”dən istifadə etdiyini, lakin atılan raketlərin ”partlamadığını, ya da 10 faiz partladığını” demişdi. Müharibə bitdikdən bir neçə gün sonra keçmiş Baş Qərargah rəisi Movses Akopyan ”İsgəndər”in istifadəsi ilə bağlı sualı cavablandırarkən demişdi: ”Atıldığını bilirəm, amma haraya atıldığını deməyəcəm”. İlin əvvəlində sabiq prezident Serj Sarkisyan adıçəkilən raketin müharibənin son dövründə Şuşa istiqamətində istifadə edildiyi barədə etibarlı məlumatlara malik olduğunu bildirərək, ”İsgəndər”in atıldığını açıqlamışdı. Azərbaycan tərəfinin ”İsgəndər” raketlərini nümayiş etdirməsindən sonra reallıq qarşısında qalan Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan raketlərin atıldığını faktiki olaraq təsdiq etsə də, Şuşaya raket atılması məsələsinin ”sirr” olduğunu iddia edib.



## “Mövzunu mümkün qədər ictimailəşdirməli, müzakirələri beynəlxalq müstəviyə daşımalıyıq”

**Günlərdir müzakirə olunan mövzunu ”Şərq”ə dəyərləndirən AMİP sədri Arzuxan Əlizadə ”İsgəndər” raketlərinin ciddi məsələ olduğunu və rəsmi Bakının sonadək gedəcəyini deyib.** Partiya rəhbərinin sözlərinə görə, ”İsgəndər M” raketi Rusiya silah arsenalının ən güclü kütləvi qırğın silahlarından biridir: ”Bu raket nüvə başlığı daşıyır. Orta və uzaq mənzilli raketlərlə bağlı beynəlxalq razılaşmaya görə, Rusiya həmin silahları digər ölkələrə satmamaq barədə öhdəlik götürüb. Yəni ”İsgəndər M” sadəcə Rusiya ordusunda olmalıdır. İndiyədək açıqlanan məlumatlarda Ermənistana verilən raketlərin ”İsgəndər E” olduğu bildirilirdi. E tipli raketlər nisbətən yaxın mənzillidir. Ancaq konkret olaraq Şuşa şəhərində ”İsgəndər M” tipli raketlərin qalıqlarının tapılması Ermənistan tərəfinin bundan istifadə etdiyini göstərir. Rusiyanın razılığı olub-olmadan baş verməsi isə başqa müzakirə mövzusudur. Ən böyük ehtimallardan biri raketin Gümrüdəki 102 saylı rus hərbi bazasından atılmasıdır. Faktlar ortadadır və əlimizdə kifayət qədər dəlil-sübut var”.

**A.Əlizadə vurğulayıb ki, nüvə başlıqlı raketin Ermənistana verilməsinin özü hərbi cinayətdir:** ”Həmin silahdan istifadə də hərbi cinayət sayılır. Məsələ çox ciddi araşdırılmalıdır. Dövlət başçısının raketlərlə bağlı xəbərdarlığı və mesajı çox önəmlidir. Rəsmi Bakı haqlı olaraq Rusiyadan hesabat tələb edir. Çünki günlərdir barəsində danışdığımız raket ruslara məxsusdur və Ermənistana da onlar tərəfindən verilib. Moskvadan cavab gözləməyə haqqımız var. Bunu mümkün qədər ictimailəşdirməli, müzakirələri beynəlxalq müstəviyə daşımalıyıq. Kütləvi qırğın silahının tətbiq edilməsinə görə bütün iştirakçı tərəflər məsuliyyət daşıyır. Rusiya öz nüfuzunun zədələnməsini istəmirsə, qısa zamanda məsələni tam araşdırıb hesabat təqdim etməlidir. Nəticə bizi qane edəcək səviyyədə olanadək məsələnin üzərinə getməliyik”.

**İsmayıl Qocayev**

# Fakt faktlığında qalır

## “Kimlərsə Kremlin xətrinə dəymək istəmir, ancaq Rusiya həmişə bizə arxadan zərbə vurub”



*“Moskvadan xəbərsiz və onun iştirakı olmadan “İsgəndər”in Qarabağda tətbiqi, sadəcə, mümkün deyil”*

Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər parkının açılışında iştirak edən zaman çox mühüm məqamlara toxunub. Dövlət başçısı, həmçinin Şuşaya atılan raketlərlə bağlı da danışıb: "Şuşanı ermənilər bu "İsgəndər-M" raketləri ilə atəşə tutmuşdular. Ermənistan ordusunda bu raketlər haradandır? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur".

”Biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan ”İsgəndər-M” raketləri ilə məhv etməyə çalışırdı.

Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat var. Sadəcə olaraq biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Erməni vəhşiliyinin, hərbi cinayətinin növbəti əyani sübutudur”. - deyə, prezident əlavə edib.

**Millət vəkili Razi Nurullayev ”Şərq”ə açıqlamasında bildirib ki, məsələnin mahiyyətinə varmaq lazımdır:** ”İsgəndər-M”in Qarabağda istifadə edilməsi ancaq Ermənistanla bağlı deyil. Çünki düşmən ölkədə yalnız ”E” tipli raketlər var. Həmçinin Rusiyanın müharibə dövründə hər gün Ermənistana silah göndərdiyini nəzərə almaq lazımdır.

Bunu hətta Rusiyadakı Ermənistan lobbisi və diasporu edibsə belə, onlar üçün şərait yaradılıb. Sadəcə hər şey görməzlikdən gəlinir. Moskvadan xəbərsiz və onun iştirakı olmadan ”İsgəndər”in Qarabağda tətbiqi, sadəcə, mümkün deyil.

Bəzi adamlar öz bəyanatları ilə Kremlin ”xətrinə dəyməməyə”, bütün məsuliyyəti Ermənistanın boynuna atmağa çalışırlar.

Halbuki, indiyədək onun əleyhinə bircə platformada belə olmadığımız Rusiya bizə arxadan zərbə vurdu.

Hələ XX əsrdə ABŞ prezidenti Ronald Reyqanla SSRİ başçısı Qorbaçov arasında imzalanan müqaviləyə görə ortaq və uzaqmənzilli silahların tətbiqi qadağan edilirdi.

Rusiya bu müqaviləyə məhəl qoymadığı üçün beynəlxalq məsuliyyət daşıyır”.

**Kənan Novruzov**



# Liderlər telefonla danışıblar

## Bayden Putinə üçüncü ölkədə görüş keçirməyi təklif edib

**ABŞ prezidenti Co Bayden Rusiya prezidenti Vladimir Putinə zəng edib.**

Bu barədə Ağ Ev məlumat yayıb.

Bildirilib ki, ABŞ prezidenti rusiyalı həmkarına görüş keçirməyi təklif edib.

Prezident Bayden ABŞ-ın maraqlarına uyğun olaraq Rusiya ilə stabil və proqnozlaşdırıla bilən münasibətlər qurmaq məqsədinin olduğunu təsdiqləyib və ABŞ və Rusiyanın qarşılaşdığı məsələlərin tam spektorlarının müzakirəsi üçün qarşıdakı aylarda üçüncü ölkədə görüş-sammit keçirməyi təklif edib.

Telefon danışığı zamanı iki lider SNV-3 müqaviləsinin uzadılmasına əsaslanan strateji sabitlik və silahlara nəzarət üzrə dialoqun davam etdirilməsi də daxil olmaqla regional və qlobal məsələləri müzakirə ediblər. (apa)

Bundan başqa, C.Bayden Krımda və Ukrayna ilə sərhəddə Rusiya ordusunun gücləndirilməsindən narahatlığını ifadə edərək, ABŞ-ın bu ölkənin suverenliyini və ərazi bütövlüyünü dəstəkləməyə dair sarsılmaz öhdəliyinin olduğunu vurğulayıb. ABŞ prezidenti Rusiyanı gərginliyi azaltmağa çağırıb.

# 12 yaşadək uşaqlar mütləq maska taxmalıdır

*“Uşaqların 90 faizi xəstəliyi yumşaq keçirsə də, onlar daşıyıcı olduğundan ətraf aləm üçün təhlükə hesab edilirlər”*



Türkiyədə iki peyvəndin uşaqlar üçün də yararlı olduğu bildirilib. Belə ki, “Pfizer-BioNTech” vaksininin 12-15 yaş arasında, valideyni tərəfindən könüllü olaraq peyvəndlənməyə gətirilən 2 min 260 uşaq üzərində aparılan araşdırma zamanı onun simptomlu xəstələrə qarşı 100 faizlik təsirə malik olduğu və heç bir əlavə təsirinin olmadığı bəlli olub.

“Sinovac” şirkətinin istehsal etdiyi “CoronaVac” peyvəndinin 3-17 yaşlarındakı 550-dən çox uşaq üzərində aparılan peyvəndlənmə zamanı təsirli və etibarlı olduğu aşkarlanıb. Türkiyənin “Cerrahpaşa” tibb fakültəsinin professoru Kənan Midilli rəqəmlərdəki artımın səbəblərindən danışıb. O bildirib ki, uşaqların 90 faizi xəstəliyi yumşaq keçirsə də, onlar daşıyıcı olduğundan ətraf aləm üçün təhlükə hesab edilirlər. Bu səbəbdən uşaqların maska taxması virusun daha da genişlənməsinin qarşısını almaq üçün çox önəmlidir.

**Həkim-pediatr Tərlan Eyyubov “Şərq”də hər iki məsələyə toxunub. Həkim qeyd edib ki, müəyyən xəstəliklər vardır ki, onlar xüsusən uşaqlar üçün qorxuludur:** “Və uşaqlarda bu xəstəliklərə qarşı immunitetin yaranması, xəstəliyin neqativ nəticələrini azaltmaq üçün bu xəstəliklərə görə peyvənd edilir. Bu, məsələnin bir tərəfi. Digər tərəfi isə epidemiya yayıldıqda kimlərsə xəstələnir, tələf olur. Kimlərsə xəstələnmir və ya xəstəliyi ayaq üstə keçirir. Xəstəliyi keçirənlər və həmçinin xəstəliyi keçirməyənlərin bir qismi isə daşıyıcı olub, digərlərini yoluxdura bilər. Həm xəstəlik hallarının, həm də xəstəliyin yayılmasının qarşısının alınması üçün peyvənd olunması çox vacibdir. Ancaq bu virus yeni olduğundan, buna qarşı peyvənd də yeni yaradılıb. Lakin uşaqlar üzərində bu peyvəndin effektivliyi və təhlükəsizliyi hələ də tam öyrənilmədiyindən uşaqlarda istifadə olunması ləngiyir. Ona görə də hesab edirəm ki, ilk növbədə onun təhlükəsizliyi müəyyənləşməlidir və ondan sonra uşaqlara vurulması daha məqsədəuyğun olar”.

**T.Eyyubov uşaqların maska taxması məsələsinə də toxunub:** “Maska taxılarkən burada yaş xüsusiyyətləri nəzərə alınır. Bildiyimiz kimi, 12 yaşdan böyük uşaqlar maska taxmalıdır. Amma 6-12 yaş arası uşaqlar üçün - yaşadığı arealda xəstəliyin nə dərəcədə yayılması, uşağın maskanı düzgün və təhlükəsiz formada taxa bilmək ixtiyarında olması, onların psixososial inkişafı nəzərə alınmaqla taxa da bilər, taxmaya da. Altı yaşadək uşaqlardan isə həm təhlükəsizlik, həm onların psixososial inkişafı baxımından (dəcəllik, nadinc olması) maska taxmaq tələb oluna bilməz”.

**Aynurə Pənahqızı**

## NATO üzvü olmaq Ukraynanın bir ölkə kimi təhlükəsizliyinin zəmanətidir



# Zelenski ABŞ-dan açıq dəstək gözləyir

Ukrayna Prezidenti Vladimir Zelenski "CNN"ə müsahibəsində ABŞ-a və digər Qərb ölkələrinə mesaj verib. Zelenski açıq şəkildə vurğulayıb ki, əgər ABŞ və onun müttəfiqləri Ukraynanın NATO-ya gələcəkdə üzv olmasını istəyirlərsə, onlar gərək birbaşa bunun haqqında danışsınlar və Ukraynaya kömək üçün praktiki addımlar atsınlar. Sözlər kifayət deyil.

Onun sözlərinə görə, ABŞ Ukrayna üçün yaxşı dostdur, lakin ABŞ Prezidenti Co Bayden Rusiya aqressiyasını dayandırmaq yolunda çox şey etməlidir. O, NATO-ya üzvlüyün Ukraynanın təhlükəsizliyinə zəmanət anlamına gələcəyini bildirib.

**Politoloq Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında Zelenskinin tam haqlı olduğunu söyləyib. Analitik bildirib ki, artıq Amerikanın tərəfdaşları, Vaşinqtonu özünə dost sayan ölkələr belə quru bəyanatlarla kifayətlənmir, əməli hərəkət görmək istəyirlər:** ”Zelenski Donbassdakı gərginlik səbəbindən Ağ Evdən təminat almağa çalışır. Bilmək istəyir ki, əgər Rusiya separatçılara birbaşa yardım göstərsə, ABŞ və digər Qərb ölkələri Kiyevə hərbi dəstək verəcək, ya yox. NATO üzvü olmaq isə Ukraynanın bir ölkə kimi təhlükəsizliyinin zəmanətidir. Hərbi alyansın hansısa üzvünə hərbi təcavüz bütün təşkilat üzvlərinə təcavüz deməkdir. Ona görə də Vaşinqtondan açıq dəstək, konkret addım gözləyir”.

**Ə.Məmmədli vurğulayıb ki, Ukraynanın NATO-ya üzvlüyü dəfələrlə gündəmə gətirilib:** ”Ölkənin əraziləri işğal olunanda xüsusi vəziyyət kimi Ukraynanın hərbi təşkilata qoşulması məsələsi müzakirə olunurdu. Lakin bu təşəbbüs hərbi alyans üzvləri,ələlxüsus Almaniya və Fransa tərəfindən qəbul edilmədi. Almaniya və Fransa Rusiya ilə münasibətlərini qoruyub saxlamağa üstünlük verdi. Çünki qitə hələ də rus qazından asılı vəziyyətdədir. Sırf bu səbəbdən Avropa ölkələri Moskva qarşısında güzəştlərə məcbur olur. Digər tərəfdən Kiyev qarşısında NATO standartları şərtləri qoyulur. Vurğulanır ki, hələlik Ukrayna bu standartlara cavab vermir. Ancaq xüsusi hal kimi təşkilata qəbul edilə bilər. Nəzərə alaq ki, Ukraynadakı inqilablar, Moskva ilə qarşıdurma və ərazilərin itirilməsi məhz Qərbə görə baş vermişdi. Qərb bir müddət inqilabi proseslərə dəstək versə də, sonradan ”yoxa” çıxdı. İndi Zelenski haqlı olaraq deyir ki, ”əgər Kiyevi öz müttəfiqiniz bilirsinizsə, zəhmət çəkib arxamızda durun”.

**İsmayıl Qocayev**

# Minsk razılaşmasına qayıtmaq lazımdır



## Bu halda Qara dəniz hövzəsində gərginliyi nisbətən azaltmaq mümkündür

**Brüsseldə Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba və NATO Baş katibi Yens Stoltenberq arasında görüş keçirilib. Görüşdən sonra keçirilən birgə mətbuat konfransında Y.Stoltenberq Rusiyanın Ukrayna ilə sərhədə son günlərdə minlərlə müharibəyə hazır hərbçisini göndərdiyini, vəziyyəti narahatlıqla izlədiklərini vurğulayıb. O bildirib ki, son günlərdə Ukraynanın şərqində toqquşmalarda bir çox Ukrayna əsgəri həyatını itirib:**

”Rusiyanın Ukrayna ilə sərhədə hərbçilərini cəmləşdirməsi qanunsuzdur və dərin narahatlıq yaradır. Rusiya Ukrayna ətrafında hərbçilərini cəmləşdirməyə dərhal son qoymalı, təxribatları bitirməli və gərginliyi azaltmalıdır”. Baş katib Rusiyaya beynəlxalq öhdəliklərinə əməl etməklə bağlı da çağırış edib: ”NATO-nun Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə dəstəyi sarsılmazdır. Rusiyanın Krımı qeyri-qanuni ilhaqını qəbul etməyəcəyik. NATO Ukraynanın yanında olmağa davam etməkdədir”.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan politoloq İlyas Hüseynov bildirib ki, artıq NATO-nun yüksək vəzifəli şəxsləri də Ukrayna-Rusiya sərhədində baş verən gərginlikdən narahatdır.** Politoloq vurğulayıb ki, hazırda diplomatik siyasi müstəvidə də Rusiya ilə Ukrayna arasında görüşlər keçirilməsi, eyni zamanda sərhəddə güclü texnikanın, artilleriyanın, tankların və canlı qüvvənin toplanması tərəflər arasında müharibə ehtimallarını daha da artırır: ”Digər tərəfdən Ukraynanın prezidenti Vladimir Zelenskinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşündə mühüm tezislər səsləndi. Və Türkiyə ilə Ukrayna arasında hərbi əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı məsələlər də müzakirə olundu və Türkiyənin pilotsuz uçuş aparatlarının alınması ilə bağlı bir sıra danışıqların getdiyi vurğulandı. Son dövrlər biz müşahidə edirik ki, Amerika Birləşmiş Ştatları rəsmiləri həm müdafiə naziri, həm xarici işlər naziri, eləcə də Prezident Co Bayden öz ukraynalı həmkarları ilə mütəmadi olaraq telefon danışıqları aparırlar. Ukrayna və Rusiya arasında olan gərginlikdən narahatlıqlarını bildirirlər. Bu, sadəcə olaraq danışıqlar və təmaslar deyil, daha çox siyasi, eləcə də iqtisadi və hərbi müstəvidə müharibə olacağı təqdirdə Amerika Birləşmiş Ştatlarının Ukraynaya dəstəyini özündə ehtiva edir”.

> *“Ukrayna ilə Rusiya arasında olan gərginlik hazırkı durumda Qara dəniz hövzəsində Amerika Birləşmiş Ştatlarının, eləcə də NATO-nun hərbi iştirakçılığını da gündəmə gətirir”*

**İ.Hüseynov qeyd edib ki, Qərbin dəstəyinə güvənərək müəyyən addımlar atmağı düşünən Ukrayna tərəfi bütün bölgədə olan geosiyasi aspektləri ilk növbədə nəzərə almalıdır:** ”Ümumən Rusiyanın da bu məsələdə geri çəkilməyəcəyi açıq-aydın şəkildə görünür. Ərazilərində separatizm meyilləri olan Ukraynanın da ərazi bütövlüyünün bərpa olunması ilə bağlı müxtəlif tədbirlər həyata keçirildiyi görülməkdədir. Və Ukrayna belə görünür ki, heç bir zaman ərazisində separatizm meyillərinin baş qaldırılmasına, ərazilərinin işğal olunmasına, ərazi bütövlüyünün və suverenliyinin pozulmasına razı olamayacaq. Bu status-kvonu qəbul etməyəcək. Ona görə də Ukrayna ilə Rusiya arasında olan gərginlik hazırkı durumda Qara dəniz hövzəsində Amerika Birləşmiş Ştatlarının, eləcə də NATO-nun hərbi iştirakçılığını da gündəmə gətirir. Və Montrö sazişinə görə, NATO-nun gəmiləri Qara dənizdə müəyyən müddət kəsimində qala bilərlər. Qara dənizdə olan sülhə və təhlükəsizliyə təhdid məsələləri də digər prioritet olan bir məsələdir. Buna görə də bölgədəki sülhü və təhlükəsizliyi bərpa etmək, eskalasiya ehtimallarını aşağı salmaq və Qara dəniz hövzəsində olan gərginliyi nisbətən azaltmaq üçün Minsk razılaşmalarına qayıtmaq lazımdır. Onlara riayət etmək və bu sahədə olan aktivliyi yaratmaq lazımdır. Bu sərt ritorikanın aşağı salınması, düşmənçilik meyillərinin alovlanmasının qarşısının alınması diplomatik siyasi dialoqdan keçir”.

**Aynurə Pənahqızı**



## Qənimətlər Parkına giriş pullu olacaq

### Araşdırmaçı jurnalist yeni bir təklif səsləndirib

**Hərbi Qənimətlər Parkına girişin ödənişli olacağı düşünülür. Bu barədə araşdırmaçı-jurnalist Cavid İsmayıl feysbukda yazıb.**

*“Şərq” xəbər verir ki, o, yeni bir təklif də irəli sürüb:*

”Hərbi Qənimətlər Parkına giriş böyük ehtimalla, bütün muzeylər kimi, ödənişli olacaq. Təklif edirəm ki, ödənişli olacaqsa, giriş haqqından əldə edilən vəsait bütünlüklə YAŞAT Fondunun hesabına köçürülsün”.

**Samirə**

## Qadağan olunur

### Uşaqları dinə etiqad etməyə məcbur etmək olmaz



**Uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağan edilir.**

APA-nın məlumatına görə, bu, ”Dini etiqad azadlığı haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına təsir göstərməmәlidir.

Bu qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, kütləvi dini ibadət, ayin və mərasimlərin icrası zamanı dini təlimin əsaslarının işıqlandırılması yalnız qanunla müəyyən edilmiş qaydada təyin olunmuş din xadimləri tərəfindən həyata keçirilə bilər.

Dini ekstremizmin təbliğinə, həmçinin siyasi məqsədlər üçün dinlərarası fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyət qadağandır.

# Erməni vandalizmini dünyaya yaymalıyıq

İşğaldan azad olunmuş torpaqlarımıza xarici qonaqların, əcnəbi siyasətçi, diplomat və jurnalistlərin ardıcıl səfərləri təşkil olunur. Məqsəd erməni vəhşiliyini məhz xaricilərin baxışıyla dünya ictimaiyyətinə yaymaqdır.

## Müharibə bitsə də, informasiya savaşı davam edir

Ötən gün tanınmış diplomat, keçmiş həmsədr, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza beynəlxalq analitiklər qrupunun tərkibində Ağdam rayonuna səfər edib. Brayza səfər əsnasında Ağdamdan canlı çəkilişlər edib, videogörüntülər paylaşaraq, xarici dildə həm bölgə haqqında məlumalar verib, həm də erməni vəhşiliyini nümayiş etdirib: ”İndi Ağdam şəhərinin mərkəzindəyəm. Gördüyünüz kimi, burada heç bir şey qalmayıb. Nasistlərin 1945-ci ildə Varşavada hər şeyi məhv etməsindən sonra olduğu kimi. Nifrətin nə dərəcədə olduğuna baxın. Ermənilər şəhəri bu qədər vəhşicəsinə dağıdıblar. Ağdamdakı məşhur Cümə məscidi çox gözəldir. Mənim üçün bu itirilənlərin, lakin eyni zamanda ümidin simvoludur. Çünki 10 noyabrda əldə edilmiş razılaşmalar sülhün bərqərar olması üçün sabit platforma yaradıb. Ümid edirəm ki, bir neçə il sonra azərbaycanlılar buraya qayıda biləcəklər, amma bunun üçün əvvəlcə bütün minaları zərərsizləşdirmək lazımdır. Ermənistan Azərbaycana minalı ərazilərin xəritələrini verməlidir”. Brayza Ağdamdakı Qarabağ xanlarının sarayını da ziyarət edib və tarixi abidənin məruz qaldığı vəhşilikləri öz gözləri ilə görüb: ”Son 30 ildə mal-qara tövləsi olaraq istifadə edilmiş xan məqbərəsi”. İctimaiyyət nümayəndələrinin fikrincə, Metyu Brayza kimi nüfuzlu diplomatların, xüsusən Azərbaycan dostu olan əcnəbi siyasətçilərin Qarabağa aparılması təbliğat baxımından çox önəmlidir. Hər halda erməni vandalizminin məhz Brayza kimi şəxslərin dilindən eşidilməsi daha güclü təsir bağışlayır.



**Mübarizə yollarından biri xarici jurnalistləri, beynəlxalq siyasi ekspertləri işğaldan azad olunmuş bölgələrə dəvət etməkdir**

**”İslahatçı Gənclər” İctimai Birliyinin sədri, ”Editor.az” saytının rəhbəri Fərid Şahbazlı ”Şərq”ə bildirib ki, xarici ölkə və təşkilat nümayəndələrinin Qarabağa səfərlərinin təşkili olunması faydalı və zəruridir.** Birlik sədrinin sözlərinə görə, müharibə hərbi müstəvidə sonlansa da, informasiya savaşı hələ də davam edir: ”Ermənistan informasiya savaşından vaz keçmir. Qarabağ ətrafında gedən proseslərlə bağlı dünya ictimaiyyətini çaşdırmağa çalışır, təxribat xarakterli açıqlamalar yayır. Bəlә məqamda cəbhədə qazandığımız uğurları diplomatik səviyyədə daha genişmiqyaslı davam etdirməliyik. Düşmənlə diplomatik mübarizə yollarından ən mühümü xarici jurnalistləri, beynəlxalq siyasi ekspertləri işğaldan azad olunmuş bölgələrə dəvət etməkdir. Bu addım ilk növbədə əcnəbi diplomatlarda erməni barbarlığı ilə bağlı təəssürat yaradacaq. Bölgəyə səfər edənlər erməni vandalizminin canlı şahidlərinə çevriləcəklər. Daha sonra onların vasitəsi ilə çoxsaylı insanlar erməni vəhşiliyindən xəbər tutacaq. Hamı biləcək ki, ermənilər sadəcə günahsız insanlara, qadın, uşaq və qocalara deyil, tarixi-dini abidələrə də divan tutublar. Mədəni irsə təcavüz bəşəri cinayətdir və bütün dünya ictimaiyyəti tərəfindən pislənilir. Qarabağdakı acı mənzərənin, dağıntıların, xarabalıqların əcnəbi diplomatlar tərəfindən dünyaya tanıdılması yalan məlumatlar yayan erməni lobbisinə də böyük zərbə olacaq. Dünya bir daha əmin olacaq ki, Azərbaycan haqq uğrunda savaşıb və barbar ermənilərin bəşəriyyətə vurduqları zərərin qarşısını alıb”.

**İsmayıl Qocayev**

# Akademikin sirli qətli

## Ziya Bünyadovun öldürülməsi dövlət quruculuğuna atılan güllə idi



Mart ayının əvvəlləridir, bir neçə həftə sonra bahar gələcək. Elə indidən yazın ayaq səsləri duyulur, günəş bütün gücü ilə Bakını isitməyə çalışır. Birinci Fəxri Xiyabandayam, qarşımda bir heykəl var. Dar cərgədə dayanıb ona baxıram. Əslində burdan dəfələrlə keçib ədəbi, bədii korifeylərimizin, fikir, düşüncə insanlarımızın əksərinin soyuq məzarına baş çəkmişəm, keçmiş prezidentimiz, rəhmətlik Əbülfəz Elçibəyi ziyarət etmişəm. İlk dəfədir ki, ayaq saxlayıb bu heykələ nəzər yetirirəm.



Bu, 1997-ci ilin fevralında qətl edilən görkəmli tarixç?i-alim və ictimai xadim, akademik Ziya Bünyadovun məzarıdır. Dayanmağımın səbəbi isə onun qətlini araşdırmağa başlamağımdır. Diqqətlə izləyirəm, onunla səssizcə, xəyalən dialoq qururam. "Sizə nə üçün qıydılar, Ziya bəy?"- deyə sual verirəm. Şübhəsiz ki, soyuq məzarın cavabı olmur. Mən isə onu eşitməkdə acizəm. Lakin suala cavab tapmaq üçün çalışacam.

Gəlin, öncə Z.Bünyadovun öldürüldüyü o fevral gününü yada salaq.

O, yaşadığı binanın qarşısında cinayətkar qrup tərəfindən vəhşicəsinə qətlə yetirilib. Həmin gündən bir qədər əvvəl Müdafiə Nazirliyindəki korrupsiya ilə bağlı əlində sənədlər olduğunu bildirib. Bu haqda parlamentin qapalı toplantısında həmkarlarına məlumat verib.

Z.Bünyadovu öldürən dəstə barəsində Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə (indiki Bakı Ağır Cinayətlər Məhkəməsi) 21 fevral 200l-ci il tarixli hökm çıxarıb.

Hökmə əsasən, dəstə üzvləri 1997-ci ilin yanvarında Bakıda yığıncaq keçiriblər. Orda Nizami Nağıyev, Cavanşir Aslanov, Mahir Zeynalov, Qalib Babayev, Tariyel Ramazanov, "Nəsrullah" adlı şəxs iştirak edib. Akademik Ziya Bünyadovun xidməti, siyasi fəaliyyətinə son qoymaq qərarlaşdırılıb. Qətlin həyata keçirilməsi planı qurulub, dəstə üzvlərinin hər birinin rolu öz aralarında bölüşdürülüb. Yığıncaqda akademikin İran müştəyidləri tərəfindən ölümünə "fətva" verildiyi vuğrulanıb. Guya ki, Ziya Bünyadov islam tarixinin tərcüməsində kobud səhvlərə yol verib.

Həmçinin qeyd olunub ki, N.Nağıyev, M.Zeynalov, Xanlar Cabbarov, Maarif Əliyev, Rövşən Həsənov, Qədir Abbasov, Rizvan Məmmədov, Q.Babayev Tariyel Ramiz oğlu Ramazanov istintaqa məlum olmayan, özlərini İran İslam Respublikası vətəndaşları kimi təqdim edən "Məhəmməd" və





"Nəsrullah" adlı şəxslərin 1993-cü ildə Azərbaycanda, o cümlədən Bakı şəhərində islam dininin müdafiəsi pərdəsi altında ağır və xüsusilə ağır cinayətlər törədilməsi məqsədi ilə yaratdıqları "Vilayəti Əl-Fəqih Hizbullah" adlı cinayətkar birliyə qəbul olunublar. 1993-cü ildən 2000-ci il oktyabrınadək orada iştirak ediblər.

21 fevral 1997-ci il saat 16 radələrində dəstə 2 qrupa ayrılıb. Tapança-pulemyotla silahlanmış T.Ramazanov və C.Aslanov akademik Ziya Bünyadovun evə qayıtma vaxtını mobil telefon vasitəsi ilə 2-ci qrupa məlumat verib. N.Nağıyev bıçaqla, Q.Babayev isə tapança ilə silahlanıb. M.Zeynalovla birlikdə avtomobillə akademik Ziya Bünyadovun yaşadığı binanın yaxınlığında növbəti zəngi gözləyiblər. Axşamüstü saat 6 radələrində Tariyel Ramazanov akademik Ziya Bünyadovun evinə gəlməsi barədə Mahir Zeynalova məlumat verib. O, kənar şəxslərə işarə vermək məqsədi ilə avtomobildə qalıb, Q.Babayev binanın tinində, N.Nağıyev isə 3-cü girişin qarşısında mövqe tutub. Z.Bünyadovun mənzilinə tək getməsi barədə Q.Babayevin işarəsindən sonra N.Nağıyev binanın 3-cü girişinə daxil olaraq gözləyib. 1-ci və 2-ci mərtəbələrin arasındakı meydançada Ziya Bünyadovun arxa tərəfinə keçib, ona sağ və sol qabırğaaltı, qarın nahiyələrinə, sol əlin arxa bayır səthinə 5 dəfə ardıcıl zərbə vurub.

Həmin vaxt hadisə yerinə Qalib Babayev də özünü çatdırıb və "Makarov" markalı səsboğucusu olan tapançadan Ziya Bünyadovun sifətinin sağ yanaq nahiyəsinə, boynuna atəş açıb. Akademikin həyatına son qoyan hər iki şəxs Mahir Zeynalovla birgə avtomobillə hadisə yerindən qaçıblar. 24 mart 1997-ci ildə N.Nağıyev, M.Zeynalov, T.Ramazanov, Q.Babayev, C.Aslanov və Xanlar Cabbarov Vüsal Nəzərovun vasitəçiliyi ilə gizli yolla İrana keçmək istəyiblər. O zaman sərhəd zastavasının əsgəri Təyyar Ağakərim oğlu Ələkbərovu rüşvət verməklə ələ alıblar. O da növbədə olan əsgər Fuad Cümşüd oğlu Məmmədovu sərhəd qaydalarını pozmağa təhrik edib. Dəstə üzvləri əsgərlərlə birgə sərhəd istiqamətində hərəkət edərkən xidmətdə olan digər əsgərlər Rasif Niyazi oğlu Baxışov və Rauf Qasıməli oğlu Cəfərova müqavimət göstəriblər. Onlara basqın edib T.Ələkbərovun xidməti avtomat silahını əlindən alıblar. R.Cəfərovun silah tətbiq etməsi nəticəsində Qalib Babayev ölüb, sıravi vətəndaş Rasif Baxışov ağır dərəcəli bədən xəsarəti alıb. N.Nağıyev, M.Zeynalov, T.Ramazanov, X.Cabbarov və C.Aslanov isə hadisə yerindən qaçaraq İran ərazisinə keçiblər. Məhkəmə hökmünə əsasən, M.Zeynalov və N.Nağıyev ömürlük, digərləri isə müxtəlif müddətə azadıqdan məhrum etmə cəzasına məhkum olunublar.

Hökmdən N.Nağıyev, digərləri və müdafiəçiləri apelyasiya şikayətləri verərək bəraət hökmü çıxarılmasını xahiş ediblər. Apelyasiya Məhkəməsinin cinayət və inzibati hüquqpozmalara dair işlər üzrə məhkəmə kollegiyasının 24 iyul 2001-ci il tarixli qərarı ilə Nizami Nağıyev və müdafiəçisinin apelyasiya şikayətləri təmin edilməyib. Hökm ona aid hissədə dəyişdirilmədən saxlanılıb.

*Ziya Bünyadovun qətlindən 24 il ötüb. Hələ də müəmmalar, qaranlıq qalan məqamlar cəmiyyətdə sual doğurur.*

**Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu "Şərq"ə akademikin qətlinin müstəqillik dövründə törədilən açılmamış cinayətlərdən biri olduğunu söyləyib:** "Akademikin öldürülməsindən dərhal sonra burda "Hizbullah" terror təşkilatının əlinin olduğu iddiası irəli sürüldü və bir neçə nəfər həbs olundu. 2000-ci ildə Abşeron Rayon İcra Hakimiyyətinin başçısının oğlu saxlanıldı və atası işdən çıxarıldı. Məhkəmə prosesi açıq olmadığından onu birinci iddia ilə necə əlaqələndirdilər deyə bilmərəm. Hər halda bir qətlə görə iki ayrı-ayrı qrup fərqli vaxtlarda mühakimə olunursa, bu, cinayətin açılmadığını göstərir. Qeyd edirlər ki, Z.Bünyadov qətlindən bir müddət əvvəl açıqlama verib, onda Müdafiə Nazirliyindəki maliyyə pozuntuları ilə bağlı hansısa faktlar olub. Düşünmürəm ki, Azərbaycanın daxilindəki bir məmur qrupu, yaxud da nazir, Yeni Azərbaycan Partiyasının sədr müavini Ziya Bünyadova əl qaldırsın. Çox güman ki, onun qətli ölkə xaricindən sifariş olunub. Məqsəd də düşündüyümüzdən daha uzaq gedən idi. Tarixçiləri, alimləri öldürənlər uzun müddətli planlar qururdular. Gördük ki, Z.Bünyadovun ölümündən sonra tarix elmində bir boşluq yarandı. Yenidən tarixi sovet dövründə olduğu kimi ideoloji platforma üzərində yazmağa, saxtalaşdırmağa başladılar. Fikrimcə, Z.Bünyadovun öldürülməsi dövlət quruculuğumuzun gələcəyinə atılan güllə idi. Amma iş dəqiq və dərindən araşdırılmadığı üçün aydınlaşmadı".

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu bildirib ki, bu cinayət o dönəm Azərbaycanda ciddi rezonans doğurub:** "Qatillər axtarılırdı, sonra cinayətkarların tapıldığı söylənildi. Məhkəmə ilə bağlı müəyyən yazılar var idi. Deyilər ki, etirafçıların günahları yoxdur. Adətən belə hadisələrdə qatillər günahlarını sonradan inkar edirlər. Cəmiyyətin bir hissəsində də şübhələr qalıb. Düşünülür ki, qətlin tam sifarişçiləri həbs olunmayıb. Ona görə bu məsələlər mediada bir daha işıqlandırılmalıdır. Çünki Ziya Bünyadov sıradan bir adam deyildi. Azərbaycanın tanınmış akademiki idi, gənc yaşında Sovet qəhrəmanı olmuşdu. Siyasi həyatımızda mühüm rolu vardı. Onun qətlinin məhkəməsi açıq keçirilməli idi. Yenə də gec deyil. Qatillərlə bağlı dəqiq faktlar mövcuddursa, onlar haqqında bütün məlumatların açıqlanmasına ehtiyac var".

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli deyib ki, Ziya Bünyadovun qətli indiyə qədər sirli qalıb:** "Fərqli versiyalar irəli sürüldü. Əvvəlcə din motivli olduğu söylənildi. O dövrdə Ziya Bünyadovun siyasi fəaliyyəti təhrif olundu, parlamentdəki sərt çıxışları fonunda baş verən hadisələr nəzərdə tutuldu. Bu cinayəti yenidən araşdırmaq və sözün həqiqi mənasında əsl təqsirkarlar tapmaq hüquq-mühafizə orqanlarının işidir. Çünki məşhur qatillərdən biri Hacı Məmmədov tutulanda sözügedən cinayətdə əlinin olduğu bildirildi. Bu artıq başqa motivli yanaşma idi. Məncə, hələ də qaranlıq nüanslar çoxdur. Biz bunu siyasi qətl hesab edirik. Ziya Bünyadov siyasi xadim, millət vəkili olub. O, bu xalqın adamı idi və onun heysiyyəti uğrunda çarpışırdı. Ona görə bütün ehtimallar obyektiv araşdırılmalıdır".

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl isə mövsu ilə bağlı bunları deyib:** "O zaman xeyli müəmmalar var idi. Hələ tamam başqa adamlar həbs olundu. Sonradan guya ki, qətli törədənlər könüllü təslim oldular. Məsələni dinlə bağladılar. Rəsmi şəkildə cinayətin açıldığı cinayətkarların həbsdə olduğu söylənilir. Amma qaranlıq məqamlar qalmaqdadır. Ona görə ki, adamların motivləri təbii görsənmir. Yenə də deyirəm, hər halda illərdir, həbsdədirlər və perspektivdə nə olacağı bilinmir. Ziya Bünyadovun qətlinin araşdırılmasındakı şəffaflıq sona qədər təmin edilmədi. Biz də yalnız ehtimallar irəli sürə bilərik. Bu işlə əlaqədar həbs olunanlar var, kimsə nə isə deyə bilməz. Çünki qətli etiraf ediblər. Hətta mətbuatda etirafları yayımlandı ki, biz bu səbəbdən öldürmüşük. Onlar da sona qədər səmimidirlər, yoxsa deyillər, bilmək olmaz".

***Bunları sonradan biləcək və yazıya köçürəcəkdim. Hələ isə o gündə, Ziya Bünyadovun məzarı başındayam. Bütün bilinməzlərin içərisində, bu səssiz xiyabanda, sakitcə düşünürəm. Nə yalan deyim... elə onun "güllələnmiş" heykəli kimi mənim də fikirlərim dəlik-deşikdir...***

**Samirə Ərəblinski**

# “Kəlbəcəri azad etməklə əmimin intiqamını aldıq”

## Namizəd Abdullayev Qarabağın xain düşməndən azad edilməsində şücaət göstərib

### “Şagirdlərin bizə yazdıqları məktubları oxuduqca daha da ruhlanırdıq”



“Od kökü üstə bitər”, zərb - məsələsini atalar əsassız deməyib. 44 günlük Vətən savaşında Azərbaycan xalqı bir daha əmin oldu ki, bu torpağın suyu, çörəyi ilə mərdlik, ləyaqət, şərəf qanına hopmuş nə qədər igid, cəsur insanlarımız var. Torpaq da hamıya qarşı eyni dərəcədə səxavətli deyil. Mənfur qonşularımız əsrlərlə bu torpağın üzərində gəzsələr də, suyundan içib, çörəyindən yesələr də, mərd ola bilmədilər. Çünki gəlmə idilər, yad idilər.

Bizdən fərqli olaraq Vətən torpağı onları tanıdı, xain olduqlarını duydu və onlara mərdlik, kişilik, ləyaqətdən pay vermədi. Əsli-nəsli saf olan, mayası sədaqətlə yoğrulanlara verdi, bütün gözəl nemətləri. Azərbaycanımızın Qarabağdan məsafəcə aralı bölgəsində - Zərdabda dünyaya göz açmış Azər və Samir Abdullayevlərin taleyinə Vətən torpağını düşməndən qorumaq yazıldı. Onlar bu şərəfli vəzifəni başı uca, alnı açıq yerinə yetirdilər. 30 il sonra tarix təkrar olundu. Azər Abdullayevin oğlu Namizəd Abdullayev Qarabağın xain düşməndən azad edilməsində şücaət göstərdi. Kəlbəcərin işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak etdi. Namizəd Abdullayev haqqında məlumat verəcəyik.

Öncə isə Namizədin qəhrəman atası və şəhid əmisi barədə məlumat verməyi özümüzə borc bilirik.

Məlumdur ki, ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycanın daxili işlər orqanları milli müstəqilliyin qazanılması və qorunması, torpaqlarımızın düşmən hücumundan müdafiəsi sahəsində əzmkarlıq nümayiş etdiriblər. Ermənistanın hərbi təcavüzünə milli müqaviməti də ilk olaraq məhz polis orqanları təşkil edib. Azərbaycanın ərazi bütövlüyü uğrunda şiddətli döyüşlərdə daxili işlər orqanlarının şəxsi heyətinin 1695 şəhid verməsi, 1710 əməkdaşın isə yaralanması buna əyani sübutdur. Vətənə xidmət kimi şərəfli vəzifənin öhdəsindən layiqincə gəlmiş daxili işlər orqanlarının 66 əməkdaşına Azərbaycan Respublikasının Milli Qəhrəmanı fəxri adı verilib, 86 əməkdaş ”Azərbaycan Bayrağı” ordeni, 247 əməkdaş isə müxtəlif orden və medallarla təltif edilib. Zərdablı qardaşlar - Azər və Samir Abdullayevlər də Vətənin dar günündə döyüşə atılıblar. Qarabağ müharibəsi başlananda Abdullayev Samir Namizəd oğlu Zərdab Rayon Polis Şöbəsinin əməkdaşı idi və o da digər məsləkdaşları kimi müharibədə iştirak edirdi. S.Abdullayev 1991-ci il iyunun 17-də Kəlbəcər yaylağında - Sarıyerdə gedən döyüşdə qəhrəmanlıqla həlak oldu. Və Zərdabın ilk şəhidi oldu. Şəhid Samir Abdullayevin qardaşı Azər Abdullayev də daxili işlər orqanlarının əməkdaşı idi. Və o da Qarabağ müharibəsinin iştirakçısı olub. Müharibədən sonra yenə DİN orqanlarında xidməti vəzifəsini davam etdirib.

Bu iki qəhrəman, cəsur qardaşın nəslinin davamçısı Namizəd Azər oğlu Abdullayev 30 il sonra atasının, əmisinin getdiyi yolla addımladı. Qarabağımızı mənfur düşməndən azad etmək, həm də əmisinin şəhadətə yüksəldiyi torpaqda - Kəlbəcərdə şücaət göstərmək, təkcə əmisinin deyil, bütün şəhidlərimizin və erməni vəhşiliyinin qurbanı olmuş minlərlə soydaşımızın qisasını almaq, demək ki, babasının adını daşıyan Namizədin alın yazısı, taleyi, qisməti, şərəfli ömür yolu imiş.

Namizəd Abdullayev 1997-ci il təvəllüdlüdür. Orta məktəbi bitirdikdən sonra, 2014-cü ildə Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsinin Azərbaycan dili-İspan dili tərcümə ixtisasına qəbul olub. 2016-cı ildə Erasmus+ proqramı çərçivəsində birincilik qazanıb. Beləliklə, 2016-2017 tədris ilini İspaniyanın Murcia şəhərində yerləşən Murcia Dövlət Universitetində təqaüdlə oxumağa layiq görülüb. 2018-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin ”Biznesin təşkili və idarə edilməsi” fakültəsinin MBA - Beynəlxalq Biznes ixtisasının magistratura pilləsində təhsilini davam etdirib. Azrbaycanımızın bu savadlı, perspektivli gənci Vətən müharibəsi başladıqda ordu sıralarında xidmət keçirmiş. Hazırda da xidməti borcunu davam etdirir. Özü bu haqda ”Şərq”ə danışdı:

- Mən 2020-ci ilin aprel ayında ordu sıralarına çağırıldım. Vətən müharibəsi zamanı Kəlbəcər uğrunda döyüşlərdə iştirak etdim. Əlbəttə, həm çətin, həm qürurlu idi. Şəhidlər verdik, bəzi yoldaşlarımız yaralandı. Amma müharibənin son gününədək həm dövlətimizin, həm də xalqımızın qayğısını hiss etdik. Orta məktəb şagirdləri bizə məktub yazırdılar. Onları oxuduqca daha da ruhlanırdıq. Dekabrın 29-da Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ”Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunmuşam. Bildiyiniz kimi, atam Azər Abdullayev və əmim Samir Abdullayev Birinci Qarabağ müharibəsinin iştirakçısı olublar. Əmim o vaxt Kəlbəcərdə şəhadətə yüksəldi. Kəlbəcər də artıq azaddır. İndi əmimin ruhunun rahat olduğuna əminəm. Çünki əmimin intiqamı alındı.



Əlbəttə, hərbi xidmət müddəti başa çatdıqdan sonra Namizəd yaqin ki, öz ixtisasına uyğun çalışacaq, ölkəmiz, dövlətimiz üçün peşəkar kadr kimi yetişəcək. Lakin 44 günlük Vətən savaşımızın iştirakçısı olaraq hər zaman qürurlu olacaq. Qələbəylə başa çatmış Vətən savaşımızın üzərindən bir neçə ay keçir, buna baxmayaraq igid əsgər və zabitlərimizin qəhrəmanlıqları hələ də dillərdədir. Onlar yetişməkdə olan gənc nəsil üçün örnəkdirlər. Çünki ana torpağı canları, qanları bahasına müdafiə edib, ölümün gözünün içinə dik baxdılar. Vətən belə oğulların çiyninədədirsə, ona zaval yoxudr.

**Kənan**



## Azərbaycan vətəndaşları 68 ölkəyə vizasız səfər edə bilərlər

**”Henley & Partners” beynəlxalq konsaltinq şirkəti aprelin 13-də bu ilin II rübü üçün dünya pasport reytinqini dərc edib. ”Report” xəbər verir ki, Azərbaycan reytinqdə 74-cü yerdə qərarlaşıb.**

Belə ki, Azərbaycan vətəndaşları 68 ölkəyə vizasız səfər edə bilərlər.

Hesabatda qeyd olunur ki, bir sıra ölkələrdə keçirilən kütləvi peyvəndləmə aksiyaları vətəndaşların ölkələr arasında hərəkətinin yenidən adi hal alacağına ümidlər yaradıb.

## Aqil Abbas Çingiz Abdullayevi dəstəklədi

### “Niyə “Şəhid anaları” medalı təsis edilmir?”



**“Sovet ittifaqı vaxtı bir çox statuslar, o cümlədən “qəhrəman ana” statusu var idi.** Onlara da tətbiq edilən güzəştlər var idi. Çingiz Abdullayev çox maraqlı bir təkliflə çıxış edib ki, niyə bizdə ”Şəhid anaları” medalı təsis edilmir? Çingiz Abdullayevin təklifi çox maraqlıdır. Bəlkə bu məsələ baxaq?”

”Report” xəbərinə görə, bunu parlamentin dünən keçirilən plenar iclasında çıxış edən deputat Aqil Abbas deyib.

”Hesab edirəm ki, bu məsələyə baxmaq olar” - deputat bildirib.

## Yoluxanların sayı 2400-ü keçdi

### 34 nəfər vəfat edib, 2 002 nəfər sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 457 yeni yoluxma faktı qeydə alınıb, 2 002 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 34 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 289 601 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 253 762 nəfər müalicə olunaraq sağalıb, 3978 nəfər vəfat edib, aktiv xəstə sayı 31 861 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14254, ötən müddət ərzində isə ümumilikdə 3 040 386 test aparılıb.*

# NATO-nun yalnız 3 il vaxtı var

## "Ukrayna və Gürcüstan tezliklə Alyansa üzv qəbul edilməsə, hər iki ölkə yenidən Rusiya vektoruna dönəcək"

Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze qanunverici orqanın plenar iclasında çıxışı zamanı deyib ki, NATO-nu Gürcüstan və Ukraynanın Alyansa üzv qəbul olunması prosesini sürətləndirməyə çağırıraq.




Onun sözlərinə görə, Gürcüstan NATO-nun Qara dəniz bölgəsində daha fəal iştirakının tərəfdarıdır və bu, sülh, təhlükəsizlik və sabitliyin qarantıdır. Komitə sədri dünya ictimaiyyətini Gürcüstan və Ukraynanın suverenliyini fəal şəkildə dəstəkləməyə çağırıb.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"ə bölüşən politoloq Tural İsmayılov qeyd edib ki, həm Gürcüstanda, həm də Ukraynada NATO ilə sıx əlaqələrin qurulması əsas prioritet müzakirə mövzularından biridir.** T.İsmayılov vurğulayıb ki, rəngli inqilablar baş verməmişdən əvvəl Gürcüstan və Ukrayna bu mövzunu həssas hesab edirdi: "Həm Ukraynada, həm də Gürcüstanda Rusiyanın siyasi arbitrından uzaqlaşmaq üçün Qərb tərəfindən müəyyən layihələr həyata keçirildi. Ölkədəki siyasi xaos, hərc-mərclik mühiti dərinləşdirildi və nəticədə böyük təlatümlər yaşandı. Lakin buna baxmayaraq NATO-nun bu ölkələrə münasibəti yenə ikiüzlülüklə xarakterizə olunur. Çünki bu ölkələrin Rusiyanın siyasi təsir dairəsindən uzaqlaşmasında maraqlı olan Qərb dairələri xüsusən NATO-nun siyasi institutları hazırda Gürcüstan və Ukrayna ilə bağlı pozitiv mesajlar versə də, bu ölkələrin NATO-ya tam şəkildə üzv olması məsələsində təəssüf ki, yekdil addımı ata bilmirlər".

**Politoloq hesab edir ki, burda təbii ki, həm Rusiya, həm də Çindən də müəyyən qədər çəkingənlik var:** "Xüsusən Avrasiya regionunda NATO tam şəkildə təsir gücünü genişləndirdiyini açıq şəkildə dünyaya göstərə bilmir. Digər tərəfdən isə NATO özünün daxilində ciddi fikir ixtilafları mövcuddur. Amma eyni zamanda biz ölkələrdə bu qədər separatçılıq meyilləri və daxili qarmaqarışıqlıqların fonunda həm Ukraynada, həm də Gürcüstanda NATO-ya inteqrasiya ilə bağlı tələblərin güclənəcəyini düşünürük. Hesab edirəm ki, yaxın 2-3 il ərzində NATO-nun Ukrayna və Gürcüstanla bağlı konkret praktiki hansısa addımı olmasa, təəssüf ki, həm Ukrayna, həm də Gürcüstan yenidən Rusiya siyasi vektoruna geri dönüş edə bilər".

**Aynurə Pənahqızı**



# Maska taxmayacaqlar

*Daha 23 əyalət etiraz etdi*

ABŞ-da Prezident Co Bayden koronavirus tədbirlərinin davam etməsi mövqeyini qoruyur.

"Şərq" türk mətbuatına istinadən xəbər verir ki, ölkədə Texas əyalətinin tətbiq etdiyi maska taxma öhdəliyini ləğv etmək qərarına daha 23 əyalət əlavə edilib.

Maska taxma tələbi ləğv edilən əyalətlər arasında Alabama, Alyaska, Arizona, Arkansas, Florida, Corca, Aydaho, İndiana, Kansas, Missisippi, Missouri, Montana, Nebraska, Şimali Dakota, Oklahoma, Cənubi Karolina, Cənubi Dakota, Tennessi, Texas, Yuta, Viskonsin və Vayominq yer alıb.

*Qeyd edək ki, ABŞ-da rekord dərəcədə gündəlik peyvəndləmə sayı 5 milyona çatıb. Ölkə daxilində təxminən 75 milyon insan peyvənd edilib, 121 milyon insan isə ilk doz peyvəndini alıb.*

**Aygün Tahirqızı**

# Ərdoğan yardım etməyə hazırdır

## *Zelenski Ukrayna ordusunun döyüş qabiliyyətini yüksəltmək üçün Türkiyənin qapısına getdi*

"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ukraynalı həmkarı Vladimir Zelenski ilə görüşünün nəticəsi olaraq "Krım platforması" ideyasını dəstəklədiyini bildirib. Türkiyəli lider bütün səviyyəli görüşlərdə Ukrayna ilə bağlı səsləndirdiyi fikirləri yenə də təkrar edərək həmin ölkənin ərazi bütövlüyünü dəstəklədiyini ifadə edib".

**Bu sözləri iki ölkənin dövlət başçılarının görüşü barədə "Şərq"ə danışan BDU-nun professoru, politoloq Əlimusa İbrahimov deyib.**

**Ə.İbrahimov görüş barədə, həmçinin bunları söylədi:** "Ukrayna ilə Rusiya arasında vəziyyətin daha da gərginləşdiyi vaxta təsadüf edən bu səfər həm Ankara, həm də Kiyev baxımından müxtəlif şəkildə izah edilir. Rusiyanın Suriya və Türkiyə ilə qarşı-qarşıya dayandığı digər nöqtələrdə ikincinin maraqları ilə heasablaşmadığı tez-tez manşetlərə daşınır. Bir çox siyasətçilər də Ukrayna ilə bu qədər yaxınlaşmanı Rusiyanın Türkiyəyə qarşı əməllərindən çəkindirmək məqsədi güddüyünü bildirirlər.

Həmçinin Rusiya ilə qarşıdurmanın müharibə səviyyəsinə çatacağı halda Türkiyənin özünü necə aparacağını öyrənmək baxımından çox əhəmiyyətli olduğunu düşünürlər. Diqqətəlayiq haldır ki, görüş ərəfəsində Ərdoğan Putinlə telefon əlaqəsi saxlayaraq Donbass ətrafında baş verən hadisələri müzakirə edib. Zelenskinin Ankaraya səfərinin rəsmi səbəbi kimi Türkiyə ilə Ukrayna arasında olan yüksək səviyyəli Strateji Şuranın sayca 9-cu iclasında iştirak etmək göstərilir.

Müzakirə olunan məsələlərə diqqət yetirdikdə isə ortaya daha fərqli və yeni mövzuların salındığını görürük. Rəsmi məlumatlara görə, Zelenski - Ərdoğan görüşündə Donbass ətrafında vəziyyət, hərbi sahədə əməkdaşlıq, "Krım platforması", iki ölkə arasında azad ticarət və turizm haqqında anlaşma müzakirə olunub. Qeyri-rəsmi məlumatlarda isə Ukraynada məskən salmış Gülənçilər barədə də fikir mübadiləsi aparıldığı bildirilir. Bəzi mənbələr isə Rusiya ilə müharibə ərəfəsində olan Zelenskinin Ərdoğandan "xeyir-dua almaq" üçün getdiyini vurğulayır.



**Politoloq Türkiyə-Ukrayna əlaqələrinin Moskvaya təsirindən də söz açdı:** "Ekspertlər Zelenskinin Türkiyə səfərinin məqsədlərindən biri kimi, Ukrayna ordusunun döyüş qabiliyyətini yüksəltmək və Rusiyanın aqressiyasına qarşı davam gətirmək üçün Türkiyə istehsalı olan "Bayraktar" və "Akıncı" pilotsuz döyüş aparatlarını almaq istəməsini göstərirlər. Qarabağda Azərbaycanın apardığı və bu silahların geniş tətbiq olunduğu uğurlu müharibədən sonra Ukraynanın bu silahlara marağı artdı. Hətta yenə də qeyri-rəsmi mənbələrin verdiyi məlumata görə, pilotsuz uçuş aparatlarının "fəaliyyətini" izləmək üçün Ukraynadan hərbçilərdən ibarət xüsusi qrup müharibə müddətində Azərbaycanda olub. Ukraynanın "Bayraktar" və "Akıncı"nın əldə etdiyi barədə rəsmi xəbərlər var. Böyük ehtimalla bu dəfə həmin silahların birgə istehsalının gündəliyə salındığını söyləmək mümkündür.

Çünki birgə istehsal hər iki tərəfin işinə yarayır. Ukrayna bu silahları daha ucuz alır və ordusunu kütləvi şəkildə təmin edir. Türkiyə isə Ukrayna vasitəsi ilə daha modern pilotsuz uçuş aparatlarının istehsalını genişləndirir. Eyni zamanda bu sahədə əməkdaşlıq digər silahların - raket və hərbi təyyarələrin birgə istehsalına yol açır. Bəlkə də sözügedən əməkdaşlıq Türkiyənin Suriyada yeritdiyi siyasətə Ərdoğanın cavabı hesab oluna bilər. Çünki Türkiyənin maraq dairəsində olan bu ölkədə Rusiyanın "oyun qaydalarına" əməl etməməsi Ərdoğanı uzun müddətdir narahat edir. Digər tərəfdən, Ukrayna ilə əlaqələri tədricən inkişaf etdirməklə Ərdoğan Rusiyanı regionun digər bölgələrində də Türkiyənin maraqlarını tapdamaması barədə xəbərdar edir. Xüsusilə, Azərbaycanda sülhməramlı missiyanın səlahiyyətlərinin və hərbçilərinin sayının daha da artırılması Türkiyə üçün "qırmızı xətt" anlamına gəlir. Türkiyə növbəti dəfə Rusiyanın yeritdiyi siyasətin qarşısında cavab vermək iqtidarında olduğunu nümayiş etdirir. Sanksiyaların Rusiyaya təsirinin getdikcə artdığı şəraitdə Türkiyənin bu imkanları daha da genişlənir".

**Professor həmçinin masaya çıxarılan müzakirə obyektlərini açıqladı:** "Türkiyə Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini və Krımın işğalını qəbul etmədiyini bir daha vurğulayır. Diqqətəlayiq bir məsələdir ki, Rusiya ilə münasibətlərin ən yaxın olduğu dövrlərdə belə Türkiyə Krımla bağlı mövqeyini dəyişməyib. Krımın Rusiyaya birləşdirilməsinin ilk günündən Ərdoğan Rusiyanın bu addımını işğal adlandırıb və yenə də adlandırmaqda davam edir.

Bununla Ərdoğan dünya liderləri içərisində yeganə rəhbərdir ki, siyasətin mənfur sifətini qəbul etmir və hadisələrin axarına uyğun olaraq fikrini dəyişmir. Ərdoğan Ukraynanın NATO-ya qəbulunu dəstəkləyir və bu sahədə ona yardım etməyə hazırdır. Beləliklə, Türkiyə həm NATO-ya daxil olan ölkələr, həm də dünya dövlətləri arasında nüfuzunu möhkəmləndirməyi hədəfləyir. Ukrayna kimi geniş ərazi və 60 milyonluq əhalisi olan bir ölkənin Türkiyənin yardımı ilə bu təşkilata daxil olması bütün istiqamətlər üzrə türk dövlətinin faydasınadır.

Krım tatarları ilə bağlı məsələlər həmişə Türkiyənin diqqət mərkəzindədir. Türkiyə dünyanın müxtəlif bölgələrində yaşayan türk toplumları ilə münasibətdə olduğu kimi Krım tatarları ilə də yaxından ünsiyyət saxlayır və beynəlxalq şəraitin imkan verdiyi səviyyədə onlara yardım edir. Hərbi sahədə əməkdaşlıq hər iki ölkənin prioritet hesab etdikləri sfera hesab olunur.

Əməkdaşlıq inkişaf etdirildikcə buraya yeni-yeni məsələlər daxil edilir. Ukrayna Amerika və Avropanın verə bilmədiyi silahlarla öz ordusunu Türkiyənin imkanları hesabına təchiz etməkdə maraqlıdır. Donbassda vəziyyət də iki ölkə prezidentinin görüşü zamanı müzakirəyə çıxarılan məsələlərdən biri olub. Ərdoğan bu məsələdə Minsk razılaşmasını dəstəklədiyini bildirib və Ukraynanın şərqində gərginliyin aşağı salınmasının zəruriliyini vurğulayıb.

**Kənan Novruzov**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Füzulinin "Araz"ı qayıdır

## Azadlığına qovuşan bölgələrdə fərqli media strukturları yaradılacaq

Ölkəmizdə bir sıra regional media orqanları mövcuddur. Bu tip media KİV-də spesifiklik təkcə onların bölgədə baş verən hadisə və proseslərə yer ayırması, yaxud daha çox yer ayırması ilə deyil, yerli həyatın ən dərin qatlarına nüfuzetmə qabiliyyəti və imkanı ilə müəyyənləşir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regional media orqanları müxtəlif ərazilərdə ictimai rəyin formalaşmasına yardım etməklə ictimai mühitin həmin ərazi üçün vacib əhəmiyyət daşıyan hadisə və proseslərə, o cümlədən siyasi xadimlərin fəaliyyətinə nəzarətin həyata keçirilməsində birləşdirici rol oynayır. Bununla da, demokratik islahatların aparılması üçün əlverişli zəmin formalaşdırırlar. Qeyd edək ki, Rusiyada ötən əsrin 80-90-cı illərindən başlayaraq cəmiyyətdə demokratikləşmənin dərinləşməsi, humanist dəyərlərin təbliği məqsədilə vətəndaş cəmiyyəti quruculuğu üçün daha geniş aspektlər axtarıldı. Yekunda azad sahibkarlığın təşviqinə dəstəyi, dövlət və hökumət tərəfindən zorakılıq meyillərinin aradan qaldırılması kimi amillər üzə çıxarılmağa başlandı. Belə bir durumda regional mətbuatdan başlıca gözlənti onun insanları həyata səsləyən rupor rolunda çıxış etməsi idi. Gözləntilər özünü doğrultdu və Rusiyada yenidənqurma zamanında yaranan regional media çox tez bir zamanda mərkəzi və federal nəşrləri sıradan çıxarmağa müvəffəq oldu. Çünki həmin mətbuat yerli əhalinin istək və tələblərini, maraq və mənafelərini ödəmək baxımından daha geniş imkanlara malik idi. Hazırkı dövrdə isə Rusiyada regional mətbuatın ictimai həyatın müxtəlif sahələrinə baxış bucağı o qədər dərinləşib ki, bir çox mərkəzi qəzetlər oxucu auditoriyası baxımından onlara qibtə edirlər. Ekspertlərin fikrincə, Rusiya regional mətbuatının ən böyük uğuru onun bölgə həyatının dinamikasını əks etdirə bilməsi ilə bağlıdır. İstər Avropada, istərsə də Rusiyada regional medianın cəmiyyətdəki yeri və roluna, fəaliyyət dairəsinə münasibətdə kifayət qədər fundamental baxışlar mövcuddur. Dünyada regional medianın mövcudluğunda və fəaliyyətində kifayət qədər qlobal məqamlar var. Bu günləri ölkəmizdə ümumilikdə medianın və onun mühüm tərkib hissəsi sayılan, dünyada baş verən proseslərə nəzər saldıqda hətta daha böyük önəm daşıdığı görünən regional KİV-mizin müasir standartlara uyğunlaşdırılması labüddür. Dövlətimiz təbii ki, bu məsələyə sistemli, kompleks şəkildə yanaşaraq mətbuat sahəsindəki quruculuğun, inkişafın ölkənin ümumi tərəqqisinə adekvat olmasında maraqlıdır. Ümumiyyətlə, qeyd edək ki, regional mediamızın keçmişdəki ənənələrinin bərpası ilə yanaşı, əslində, indiyədək mövcud olmayan yeni bölgə mətbuatı ənənəsini formalaşdırması zəruridir. Sevindirici haldır ki, yaxın vaxtlarda regional mətbu orqanımız olmuş və 1931-ci ildə Füzulidə çapa başlayan "Araz" qəzetinin redaksiyası bərpa ediləcək. Bu barədə Mədəniyyət naziri Anar Kərimov "Twitter" hesabında yazıb. O bildirib ki, "Araz" qəzeti Ermənistanın işğalından əvvəl bölgədəki əsas media orqanı olub: "İndi binanın fasadının yalnız bir hissəsi vandalizmdən xilas olub. Biz onu bərpa edəcəyik". Media nümayəndələri bu təşəbbüsü təqdirəlayiq hesab ediblər. Heç şübhəsiz, işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri başa çatdıqdan və əhalinin bölgəyə köçü başladıqdan sonra regional media orqanları da paralel fəaliyyətə başlayacaq. Zamanla həm yeni mətbuat qurumları meydana çıxacaq, həm də işğaldan əvvəl mövcud olmuş nüfuzlu KİV-lərin bərpası prosesi başlayacaq. Ekspertlərə görə, yeni reallıqlar, informasiya siyasəti və Qarabağın yenidən dirçəldilməsi baxımından bölgədə müxtəlif media orqanlarının fəaliyyəti olduqca önəmli və zəruridir. Həmçinin ekspertlər qeyd edir ki, "Araz" qəzeti yeni siması ilə regional mətbu orqanlarımızın inkişafı üçün də gözəl bir nümunə ola bilər.

**Tanınmış jurnalist, Bakı Dövlət Universitetinin professoru Cahangir Məmmədli "Şərq"ə açıqlamasında bildirib ki, "Araz" qəzetinin redaksiyasının bərpası təşəbbüsünü çox müsbət dəyərləndirir. O qeyd edib ki, əvvəllər bu qəzet öz populyarlığı ilə diqqət çəkib:** "İlk olaraq qeyd edim ki, azad olunmuş torpaqlarımızda infrastrukturun hamısı bərpa olunmalıdır və təbii ki, olunacaq da. Cənab Prezidentimizin də ən böyük arzularından və fəaliyyətinin məqsədlərindən biri də budur ki, əvvəlki infrastruktur yenidən qurulsun. Təbii ki, Qarabağda yeni və gözəl mənzərə yaransın. "Qarabağ Azərbaycandır!" nidası tarixdə öz əbədi təsdiqini tapsın. Onun üçün əlbəttə ki, media strukturu birinci növbədədir. Çünki mövcud vəziyyətin çatdırılmasında media xüsusi önəm daşıyır. Buna görə də orda fəaliyyət göstərəcək hər qurumun fəaliyyətini indidən işıqlandıra biləcək media qurumları yaranmalıdır. Qeyd edim ki, "Araz" qəzetinin çox uzun tarixi var. O çox maraqlı qəzet idi və Füzulidə çıxırdı. Qəzetin bir çox tarixi ənənələri mövcud idi. Onun keçmiş əməkdaşlarının bir çoxunu tanıyıram. Onların bəziləri hələ də jurnalistikada fəaliyyət göstərir. İnanıram və əminəm ki, "Araz" qəzeti Qarabağda yaşayan əhalimizin fəaliyyətini yüksək səviyyədə işıqlandıran bir qəzet olacaq".

*C.Məmmədli qeyd edib ki, region qəzetlərinə bəzən başqa cür baxırlar və çox zaman onların fəaliyyətini bəyənmirlər:* "Düzdür, onların fəaliyyəti bir az səngiyib. Amma region qəzetləri bütün dünyada, hətta ən böyük ölkələrdə də özünəməxsus xüsusiyyətə malikdir. Hətta deyərdim ki, o ölkələrdə regionlara məxsus mətbuatlar daha çox oxunur və diqqət edilir. Ona görə ki, biz hər hansı bir rayonun fəaliyyəti barədə media qurumunda hansısa bir informasiyanı on gündən bir dəfə görürük. Amma region qəzetləri orada baş verən hadisələri hər gün və ya həftədə ən azı bir dəfə bizə çatdırır. Ona görə də hesab edirəm ki, belə qəzetlərin, radioların, ümumiyyətlə, media qurumlarının azad olunmuş torpaqlarımızda bərpa olunması ən birinci vəzifələrdən biridir. Mən bunu çox yüksək səviyyədə alqışlayıram".

*C.Məmmədli "Araz" qəzetinin səhifələrində görmək istədiyi mövzulardan danışıb və öz töhfələrini də diqqətə çatdırıb:* "İstərdim ki, qəzetdə fərqli və insanları maraqlandıracaq mövzulara daha çox diqqət çəkilsin. Məsələn, istərdim ki, infrastrukturun yaradılması ilə bağlı hesabatlar versinlər. Belə deyək ki, Füzulidə aeroport tikilir. Aeroport barədə geniş məlumatlar verilsin və səbəbi araşdırılsın ki, niyə prezidentimiz birinci olaraq onun tikintisinə başladı. Yəni aeroport həqiqətən ilin axırına tamamlanacaq? Həmin təyyarə limanı təkcə sərnişinlər üçün deyil, böyük təyyarələr də bura enəcək. Yaxud da ki, Füzulidən Şuşaya yol çəkilir, Füzulidən Qubadlıya gediləcək. Əlbəttə, məktəblərin açılması, mədəniyyət abidələrinin bərpa olunması və insanlar öz evlərinə dönməsi prosesi yazıya alınsın. Bir çox məsələlərə, o cümlədən insanlar qayıdandan sonra hansı işlərlə məşğul olacağı, kənd təsərrüfatı işləri ilə məşğul olma imkanları barədə suallara cavablar axtarılsın. Ermənilərin viran qoyub getdikləri torpaqlarımızdakı yeniliklər və qırıb dağıtdıqları meşələrin yenidən salınması barədə məlumatların qəzetdə çapını istərdim. Ümumiyyətlə, hesab edirəm ki, regional qəzetlərimizin və radiolarımızın ən mühüm xəbərləri sırasında kənd təsərrüfatı məsələləri birinci yerdə dayanmalıdır. Bildiyiniz kimi, Yevlaxda "Kür" qəzeti çıxır. Əminə Yusifqızı o qəzetin baş redaktorudur. O qəzetin fəaliyyəti məni çox qane edir. Yəni region qəzetləri itib-batmayıb. Onları ən yüksək səviyyədə inkişaf etdirmək lazımdır. Hesab edirəm ki, "Araz" qəzetinin fəaliyyəti ilə region mətbuatımıza yeni bir nəfəs gələcək. O, öz yenilikləri ilə digər region qəzetlərimizə əsl nümunə olacaq".

**Tanınmış jurnalist Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, yerli medianın ayaqda tutulması və inkişaf etdirilməsi vacibdir. Ona görə ki, indiki qloballaşma şəraitində insanlar həqiqətən də yerli xəbərlərə, səviyyəli mediaya çox böyük maraq göstərirlər:** "Hətta indi internet əsri olsa da, keyfiyyətli media məhsullarına çox böyük maraq var. Bir faktı qeyd edim ki, biz 1998-ci ildə internetin geniş olmadığı dövrdə ABŞ-da kiçik qəsəbəyə səfər etmişdik. Təxminən 20 min əhalisi olan bir qəsəbə idi. Orda gündəlik bir qəzet çıxırdı və tirajı yeddi min idi. Səhifələri tam həcmli, rəngli və səhifələrin sayı isə 30-40 idi. Biz açığı heyrət içində idik. Çünki balaca bir qəsəbədə yeddi min tirajla qəzetin çıxması heyrətləndirici idi. Bizə izah etdilər ki, burada daha çox yerli xəbərlərə üstünlük verilir. Çünki cəmiyyət içində insanların çoxu bir-birini tanıyır və hamı üçün qəsəbədə baş verənlər maraqlıdır. Qəzetin səhifələrində toy, yas, hətta qəsəbədə baş vermiş hadisələrə üstünlük verilir. Və ona görə də adamlar bu qəzetə maraq göstərirlər. Bizim özümüzdə hazırda rayon qəzetləri çıxır. Onlar da bir qayda olaraq icra hakimiyyətlərinin nəzdində fəaliyyət göstərirlər. Təbii ki, bu da oxucunun diqqətini cəlb etmir. Böyük həcmdə yazılar, şəkillər verilir. Kiminsə uzun-uzun çıxışı çap olunur. Təbii ki, bu, oxucunu maraqlandırmır və oxumur. Hesab edirəm ki, regionlarda ictimai, siyasi, eyni zamanda yerli əhəmiyyətli sosial problemlərə yönəlik media fəaliyyət göstərərsə, o zaman onun gündəlik oxucusu olacaq. Özü də çox ciddi sayda olacaq. Bu baxımdan düşünürəm ki, Füzulinin işğalından sonra "Araz" qəzetinin redaksiyasının bərpa edilməsi əlbəttə ki, atılmış müsbət addımdır. Düşünürəm ki, bu qəzet vasitəsilə şablon qəzetçilikdən imtina ediləcək. Özəlliklə də işğaldan azad edilmiş ərazidə insanların ora qayıdıb yerləşməsi, dinc quruculuq işlərinin aparılması və s. məsələlərin uyğun şəkildə işıqlandırılması baxımından "Araz" qəzetinin fəaliyyətinin bərpa edilməsi region mətbuatına uğur gətirəcək".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

Reportaj

# Zamanları gəldi

*Bakıdakı Qarabağ atları da öz yurdlarına qovuşacaq*





Şöhrəti dünyanı bürüyən Qarabağ atları Azərbaycan faunasının incilərindəndir. Heç kimə sirr deyil ki, ölkəmizdə iki at cinsi olan "Qarabağ" və "Dilbaz" atları möhtəşəmliyi ilə "Ərəb", "İngilis", eləcə də digər xarici at cinslərini kölgədə qoyur.

Bu at cinsləri, xüsusilə də Qarabağ atı 17-18-ci əsrlərdə Qarabağ xanlığında daha da şöhrət qazanıb. Hazırda onlar Asiya və bütün Qafqazda ən qədim at cinsi hesab olunurlar.

Vəhşi at növlərindən olan Qarabağ atının hündürlüyü 1.50 metrdən çoxdur. Kürən rəngli Qarabağ atlarının məskəni daha çox Şuşa və Ağdam şəhərləri idi.



## Şəmsəddin Atayev: "Uşaqlıqdan Qarabağ atlarının belində böyümüşəm. Kəndimiz işğal olunanda nəsli kəsilməsin deyə onları Bakıya gətirdim"

Qarabağ atlarını digər atlardan fərqləndirən əsas cəhət onların limonabənzər, sarı-qızılı, yaxud da parlaq narıncı rəngdə olmalarıdır. Bu atların bir neçə qədim növləri də var idi. Onlardan "Xoşbəxt", "Əlyetməz", "Gülgün" və sair atlar xüsusilə seçilirdi.

Tarixi erkən əsrlərə qədər çatan Qarabağ atları zamanla müxtəlif at cinsləri ilə qarışıb, lakin güclü genetikaya sahib olduqları üçün günümüzə qədər gələ bilib.

Hələ xanlıqlar dövründə bu atların baxımı üçün çox sayda zavodlar tikilmişdi. Onların birində atların möhtəşəmliyinə heyran olan V.V.Verşagin 1870-ci ildə belə deyirdi: "Mənim həyatda gördüyüm ən yaxşı atlar Şuşada Cəfərqulu xanın zavoduna məxsusdur. Heç bir yerdə bu cür atlar görməmişəm".

**Məşhur atlarımız barədə şuşalı tarixçi Vasif Quliyev "Şərq"ə açıqlamasında Qarabağ atlarının adının ilk dəfə antik dövrlər tarixində çəkildiyini bildirdi:** "Bundan əlavə, Qarabağ cinsi həm də Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin hökmdarlarının diqqət mərkəzində idi.

Lakin hesab olunur ki, Qarabağda müasir atçılığın əsasını Nadir şah Əfşar qoyub. Onun ölümündən sonra at zavodlarını Pənahəli xan idarə edib. İbrahimxəlil xan isə Qarabağda müasir atçılıq zavodlarının sayını artırır və Qarabağ cinsli atların seçilməsinə daha ciddi önəm verir.

Qarabağ atlarının qiyməti hələ o dövrdə rus ordusu zabitlərinin illik maaşı bərabərində idi.

Qarabağ atlarının taleyi Mehdiqulu xanın zamanında pisləşsə də, xanın qızı Xurşidbanu xanım bu vəziyyəti düzəldir".

*Tarixçi bildirdi ki, sözügedən atlar Böyük Britaniyanın kral ailəsində də böyük şöhrət qazanmışdı:* "Qarabağ atı qiymətli at hesab olunurdu. 1956-cı ildə Sovet hökuməti Böyük Britaniya kraliçasına Ağdamın at zavodundan "Zaman" adlı səmənd at bağışlamışdı. Ondan Cunaita Berlanın at zavodunda ayğır kimi istifadə olunurdu. **"Zaman"ı öz məktubunda tərifləyən C.Berlan belə yazırdı:** "Biz Zamanın gözəl rənginə və mülayim xasiyyətinə məftun olmuşuq. O, hətta ərəb atından da gözəldir. Daşqın çaylardan üzüb keçir. Bizim nəzərimizdə o, yüksək qiymət qazanıb və biz onunla



fəxr edirik. Səmimi qəlbdən deyə bilərəm ki, Zaman xarakterinə görə bütün at cinslərindən üstündür".

Qarabağ atları Qafqazın, Rusiyanın və Avropanın at sərgilərində dəfələrlə uğurlu çıxış ediblər".

Daha sonra xanlıqlar dövründən bu yana üç əsr inkişaf yolu keçən Qarabağ atları 20-ci əsrin 90-cı illərində çətinliklərlə üzləşirlər. Erməni qəsbkarlarının Qarabağın dağlıq hissəsini və bir neçə ətraf rayonu işğal etməsi Azərbaycan xalqı kimi onun faunasını da öz yurdundan köçkün etmişdi.

Həmin dönəmdə Qarabağ atlarını şücaət göstərib Ağdamda ölümdən xilas edən Şəmsəddin Atayev bu günə qədər həmin atlara göz bəbəyi kimi qulluq edir, onların artması və tanıtımında əlindən gələni əsirgəmir.

*Həmin ad bizi "Bakı Dövlət Cıdır meydanı"na gətirdi. Gördüyümüz şəhanə, tükləri gün şüaları altında bərq vuran əsl Qarabağ atları bizi ilk mənzərədən valeh etdi.*

**Qarabağ atlarının təlimçisi Şəmsəddin Atayev "Şərq"ə açıqlamasında bildirdi ki, ən böyük arzuları bu atların öz doğma diyarlarına, işğaldan azad edilmiş əzəli torpağımız olan Qarabağa qayıtmasıdır:** "Bizim ailə atçı ailəsidir. Gözümü açıb atamı, babamı bu işdə görmüşəm. Onlar xüsusilə Qarabağ atları ilə məşğul olublar. Bu gün mən də bu peşəni davam etdirirəm. Demək olar ki, uşaqlıqdan Qarabağ atlarının belində böyümüşəm. Kəndimiz işğal olunanda nəsli kəsilməsin deyə onları Bakıya gətirdim. Bizim kimi bir neçə atçı ailəsi də bu atları düşmən əlində qalmağa qoymadı.

Bu cinslərin bəziləri əvvəl Qarabağ atı olmayıb. Mən onların hamısını dəyişib Qarabağ atı etmək üçün ana atlar gətirdim, sonra o atlardan bala atlar aldım. Həmin gördüyünüz bu iki at isə təmiz Qarabağa aiddir.

İndi bizim ən böyük arzumuz bu atların öz doğma diyarlarına, işğaldan azad edilmiş əzəli torpağımız olan Qarabağa qayıtmasıdır. Biz istəyirik ki, artıq bu atları orada inkişaf etdirək, yarışlar təşkil edək. Qarabağ atları əvvəllər həmişə Ağdamda məhsul bayramlarında nümayiş etdirilib. Biz orada "Çövkən", "Cıdır" yarışları keçirir, atları Kəlbəcər, Laçın yaylağına çıxarırdıq. Doğrudur, burda da çalışmışıq ki, oxşar şərait yaradaq, inkişaf etdirək. Ancaq nə etsək də, o yerlərin əvəzini vermək olmaz. Hazırda səbirsizliklə gözləyirik ki, Qarabağ atlarını öz yerlərinə qaytaraq".

**Ş.Atayev bildirdi ki, Qarabağ atları həm də milli oyunumuz olan "Çövkən" oyunu üçün xüsusi hazırlaşdırılır:** "Hazırda ilxı şəraitində olan atlar Lənbəran kəndində saxlanılır. Yarış atları isə burada - Bakı Dövlət Cıdır meydanındadır. Mən bu atları, əsasən, milli oyunumuz olan "Çövkən" üçün yetişdirmişəm. Bir atçı olaraq bu sahəyə köməyim dəysin deyə "Çövkən" komandası yaratdım. Hansı ki, vaxtilə birinci xanım Mehriban Əliyeva "Çövkən" oyununu YUNESKO-a qəbul etdirib. Bu oyun yalnız Qarabağa məxsus olan atlarla təşkil olunsun deyə çaparlarımıza tapşırıldı ki, "Çövkən"i məhz həmin atlarla oynasınlar. Çünki bu, uzun illər belə olub".

***Şöhrəti dünyaya səs salan atlarımız indi müzəffər ordumuzun Qarabağı azad etməsindən sonra Vətənə tələsirlər.***

***İndi onlar Vətənin dörd bir tərəfindən durmadan Şuşadakı cıdır düzünə çapacaqlar.***

**Aytac Ali,**
**Ağarza Elçinoğlu**

# Azərbaycanda dini ibadət, ayin və mərasimlərə dair tələblər müəyyənləşir

Azərbaycanda kütləvi dini ibadət, ayin və mərasimlərin keçirilmə qaydasına dair tələblər müəyyənləşir.



Bu, "Dini etiqad azadlığı haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Bununla əlaqədar qanuna yeni - 6-1-ci maddə təklif olunur. Beləliklə, layihəyə əsasən, kütləvi dini ibadət, ayin və mərasimlər (dəfn, yas, iftar, kəbinkəsmə, mövlud və ehsan mərasimləri istisna olmaqla) dini ibadət yerlərində və ziyarətgahlarda keçiriləcək.

Kütləvi dini ibadət, ayin və mərasimlər (dəfn, yas, iftar, kəbinkəsmə, mövlud və ehsan mərasimləri istisna olmaqla) dini ibadət yerlərindən və ziyarətgahlardan kənarda yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə təşkil olunacaq.

# Yayda "Fəryad-2" filminin çəkilişlərinə başlanılacaq




Mədəniyyət Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında "Fəryad-2" adlı bədii filmin istehsalına başlanılıb.

Bu barədə "Report"un sorğusuna cavab olaraq nazirlikdən bildirilib.

Qeyd olunub ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunan filmin ssenari müəllifi və quruluşçu rejissoru tanınmış kinorejissor, Xalq artisti Vaqif Mustafayevdir.

Filmin çəkilişlərinin bu ilin iyul-avqust aylarında, əsasən Vətən müharibəsi zamanı döyüş əməliyyatlarının aparıldığı ərazilərdə həyata keçirilməsi planlaşdırılır.

*Xatırladaq ki, ilk "Fəryad" filmi 1993-cü ildə çəkilib. Film Birinci Qarabağ müharibəsinə həsr olunub. Baş qəhrəmanın prototipi var və burada təsvir olunan hadisələr real faktlara əsaslanır. Ekran əsəri Qarabağ müharibəsində döyüşən əsgərlərdən birinin başına gətirilən əhvalatdan bəhs edir.*

# Ucarda 6 məktəb koronavirusa görə bağlanıb

Azərbaycanda daha 6 orta məktəb koronavirusa görə bağlanıb.




APA-nın yerli bürosunun xəbərinə görə, Ucar rayon Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında rayonun Qazyan 1 saylı, Alpoot 2 saylı, Qarabörk, Rəstəcə, Küçəkənd tam orta məktəbləri və Bərküşad ümumi orta məktəblərində əyani təhsil müvəqqəti dayandırılıb. Buna səbəb adı çəkilən məktəblərdə ümumilikdə 11 müəllimdə COVID-19 testinin nəticələri pozitiv çıxmasıdır.

Fəaliyyəti dayandırılmış məktəblərdə dərslərin distant formada tədris olunmasına qərar verilib. Məktəblərdə dezinfeksiya işləri aparılır.

Qeyd edək ki, Ucar rayonunda ümumilikdə 45 orta məktəb fəaliyyət göstərir.

# İntiharlar cavanlaşıb

## *Bakıda ən son intihar edənin 14 yaşı var*

Bakıda 14 yaşlı yeniyetmə intihar edib. Muradxan adlı yeniyetmə Nizami rayonu ərazisində, Xəzər Universitetinin yaxınlığında özünü 14-cü mərtəbədən atıb. O, hadisə yerində keçinib.



Yeniyetmənin valideynlərinin əslən Füzuli rayonundan olduğu bildirilir. Hadisə ilə bağlı polis araşdırma aparır. Xəbərə görə, Muradxan intihardan əvvəl atacağı bu addımla bağlı məktub yazıb.

**Son vaxtlar ölkəmizdə intihar hallarının artdığını söyləyən psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə təəssüf hissi ilə bildirib ki, hər yaşda olan insan çıxış yolunu intiharda görür.** Onun sözlərinə görə, yeniyetmələrin intihara meyl etmələrinin bir çox səbəbləri var: "Məsələn, valideynlə uşaqlar arasında olan münasibətləri demək olar. Böyüklər düşünürlər ki, uşaqlar onları başa düşmür. Uşaqlar da həmçinin. Beləliklə valideynlə uşaqlar arasında uçurum yaranır. Fikrimcə, hadisə ciddi şəkildə araşdırılmalıdır. Təbii ki, psixoloji məqamlar çoxdur. İnsanların daxilindəki özgüvənsizlik, özünü ailəyə və cəmiyyətə təsdiq edə bilməmək baş verir. Əlbəttə, bütün bunlar nəticədir, səbəb isə daha dərində "yatır". Mənəvi aclıq, dinlənilməmək çox böyük fəsadlara yol açır. Bu gün cəmiyyətimizdə dinləmək kimi bir problem var. Empati bacarığının aşağı düşməsi mənəvi aclığa gətirib çıxarır. Nəticədə yaranan aqressiya və özünəqapanma insanın canına qıymasına səbəb olur.

İntihar psixoloji ruh halıdır və bu halda insanın bütün mənəvi dəyərləri özünüdərk mövqeyini itirir. Ona görə də bir dəfə intihara cəhd edən şəxs yenə də bu yola əl ata bilər.

Dövlət və qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif tədbirlər görülməlidir. İstər məktəb və bağçalarda, istərsə də iş yerlərində müvafiq tədbirlərə ehtiyac var. Bir insan özündən və sevdiyi insanlardan qopanda, onlar tərəfindən dinlənilməyəndə intihara əl atır. Çünki mənəvi aclıq insana hər şey etdirə bilir".

> "Uşaqlar o anda elə düşünürlər ki, onlar intihar etməklə valideynlərini cəzalandıracaqlar"

F.Mehmanqızı qeyd edib ki, yeniyetmə və gənclər sosial şəbəkələrdə hər kəsin yaxşı şəkildə yaşadığını, hər bir şəraiti olduqlarını düşünürlər. Buna görə də onların valideynlərdən müəyyən tələbləri olur: "Valideynlər də bu tələblərə cavab verə bilmədiklərinə görə, qopmalar baş verir. Sanki valideyn onların azadlıqlarını əlindən alır, maddi durum yoxdur deyə, valideynlə müəyyən problem yaşanmalıdır. Ona görə bu gün yeniyetmələr intihara meyilli olurlar. Uşaqlar o anda elə düşünürlər ki, onlar intihar etməklə valideynlərini cəzalandıracaqlar. Əslində bu, belə də olur. Çünki yaşanan peşmanlıq və depressiya valideyn üçün ən böyük cəzaya çevrilir".

**Yeganə Bayramova**



# Peyvəndləmə orucu pozmayacaq

## İslam dünyasını düşündürən suala cavab gəldi

Dünyada koronavirusla mübarizə davam edərkən, pandemiyanın kölgəsində ikinci Ramazana "Salam" deyən islam dünyasının ağlındakı suala cavab gəlib.

**"Şərq" türk mətbuatına istinadən xəbər verir ki, Diyanət İşləri Rəhbərliyi Diyanət İşləri Yüksək Şurası epidemiya xəstəliklərinə qarşı peyvəndlərin orucu pozmayacağını açıqlayıb. İclasdan sonra verilən açıqlama belə xülasə edilib:** "İslamın beş əsas prinsipindən biri olan oruc, sübh açıldıqda yemək, içmək və cinsi əlaqələrdən uzaq duraraq edilən ibadətdir. Nəticədə oruc yemək, içmək, cinsi əlaqə və bunların əhatə dairəsinə daxil olan şeylərlə pozulur.

Beynəlxalq fətva məclislərinin fikirlərinə görə, inyeksiya və peyvəndlər daxilində tətbiq olunan müalicə üsulları arasında orucu pozmayanları aşağıdakı kimi sıralamaq olar: Epidemiya peyvəndləri, ağrıkəsici iynələr, sırf terapevtik iynələr lokal anesteziyada istifadə olunan bədənin müəyyən bir hissəsini uyuşdurmaq üçün vurulan qidalandırıcı tərkibli iynələr, xəstəyə hər hansı bir maye maddə vermədən hemodializ, angioqrafiya və biopsiya aparmaq, bədənə məlhəm vurmaq, bədənə dərman lentini vurmaq".

**Aygün Tahirqızı**



# Cənub bölgəsində Azərbaycan yox, İran radiolarının səsi gəlir

## *"Mövzu çox ciddi məsələdir və dövlət güvənliyi kontekstində həllini tapmalıdır"*

"Masallıdan sonra Cəlilabad, Biləsuvar, Salyan və Qobustan rayonlarından keçib Bakıya çatırsan. Yeni çəkilən yol çox rahatdır. Adam ətrafa baxa bilir, üstəlik, bəzən radiosunu da dinləmək istəyirsən. Amma bu ərazilərdə bizim FM dalğasında Azərbaycan radioları deyil, İran radioları yer alır".

Bu barədə "Qanun" Nəşrlər Evinin direktoru Şahbaz Xuduoğlu öz feysbuk hesabında yazıb. Naşir bunun məəttəl qalmalı iş olduğunu qeyd edib: "Necə ola bilər öz ərazində, öz yolunda öz radiolarını dinləyə bilməyəsən? Bu, nəylə bağlıdır? Niyə bizim dalğalar İran sərhədinə yaxınlaşanda sıradan çıxır? Buna hansı qurumlar məsuliyyət daşıyır?".

**Mövzu barədə "Şərq"ə danışan tanınmış media eksperti Zeynal Məmmədli bildirib ki, sualımız birbaşa Milli Televiziya və Radio Şurasına (MTRŞ) ünvanlanmalıdır:**

"Bu qurum monitorinqlə də məşğuldur. MTRŞ texniki nüanslarla bağlı məsələni ən yüksək səviyyədə həll etməlidir. Məntiqə görə, belə məsələlər xüsusi xidmət qurumlarının, üstəlik, parlamentin diqqət hədəfində olmalıdır. Çox ciddi məsələdir və dövlət güvənliyi kontekstində həllini tapmalıdır. Səhlənkarlığa yol verənlər, təbii ki, cəzalandırılmalıdır. Problem uzun müddətdir ki, var".

**Yeganə Bayramova**

# Buraxılış imtahanları həftəiçi keçiriləcək

## *Yoxsa ki, şagirdlər, valideynlər taksi sifariş etməli olacaqdı*

Dövlət İmtahan Mərkəzi nəhayət, şənbə-bazar günləri ictimai nəqliyyatın işləməməsini nəzərə aldı və XI siniflərin aprelin 15-i və 16-da keçiriləcək buraxılış imtahanlarını həftəiçi günlərə təyin etdi.



Buna da şükür. Yoxsa ki, şagirdlər, valideynlər taksi sifariş etməli olacaqdı, taksi də gələ, ya gəlməyə. Digər məsələ - distant təhsilin ümumilikdə tədrisin səviyyəsinə, şagirdlərin tədris proqramını nə dərəcədə mənimsəməsi və buraxılış imtahanlarının nəticələrinə təsiridir. Bu, imtahan keçirilən binaya necə çatmaqdan da, taksi problemindən də önəmlidir. Məlumdur, pandemiya uşaqları əyani dərslərdən kənar salıb. Və bunun ağır fəsadları haqqında artıq ikinci ildir ki, danışılır. Distant təhsilin nöqsanları ötənilki buraxılış və qəbul imtahanlarında nəticələrin aşağı olmasına gətirib çıxardı. Bu dəfə də eyni vəziyyət yaşanacaqmı?

**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında DİM-in buraxılış imtahanlarının keçirilmə vaxtı ilə bağlı düzgün qərar verdiyini bildirdi:**

- Buraxılış imtahanlarının şənbə-bazar günü keçirilməsi qərarı yanlış olardı. Ümumiyyətlə, bəzi qurumlar qərar verərkən Nazirlər Kabinetinin qərarını da unutmamalıdır. İctimai nəqliyyat işləmir, imtahan keçirilən binaların məsafəcə yaxın-uzaq olması valideyn və şagirdləri çox zaman çətinliyə salır. Hər kəs taksidən istifadə edə bilmir ki. İmtahan günlərinin təyini zamanı bundan sonra da mövcud imkanların nəzərə alınması mütləq lazımdır. Distant təhsilə gəlincə, bu, şagirdlərin imtahan nəticələrinə təsir edəcək, məncə. Hamıya məlumdur ki, 11-ci siniflərdə tədris onlayn davam edir. Etiraf edək ki, bu tədrisə görə şagirdlərin buraxılış imtahanı nəticələri çox zəif olar. Keçirik ikinci məqama - şagirdlərin repetitor hazırlığına. Əsas yuk bu məqama düşür. Yəni şagird repetitor hazırlığından yaxşı hazırlaşıbsa, nəticə yaxşı olacaq. Ancaq ötən zamana nəzər salsaq görərik ki, repetitor hazırlığı da o qədər uğurlu alınmırdı. Əksər hallarda hazırlıq kursları və repetitor hazırlığı onlayn davam edirdi. Yenə də əyani tədrisin verdiyi üstünlüklərə nail olunmurdu. Baş verənlərə baxdıqda, ehtimal edirəm ki, nəticə zəif olacaq. Yəni biz ənənəvi təhsildə olan nəticəni ala bilməyəcəyik. Buna görə də qəbul imtahanlarının iki dəfə keçirilməsinin daha doğru olacağını düşünürəm.

> "Biz ənənəvi təhsildə olan nəticəni ala bilməyəcəyik. Buna görə də qəbul imtahanlarının iki dəfə keçirilməsinin daha doğru olacağını düşünürəm"

**Məlahət Rzayeva**

# Səyavuş Kərimi fərqli və dərin düşünür

## Həyat yoldaşı: Mən artıq həyata onun gözündən baxmağı öyrənmişəm

"İctimai TV"-nin "Gəl, qonaq ol" verilişi Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Səyavuş Kəriminin evində çəkiliş edib.



"Şərq"in məlumatına görə, Səyavuş bəy gənc xanımı və övladları ilə birgə Saleh Bağırovun suallarını cavablandırıblar.
Xalq artisti öncə xanımı ilə tanışlığından danışıb: "Günay xanım Milli Konservatoriyada çalışmağa başladı. Ora da köhnə bina idi, pəncərəsi də açıq olurdu. İşə gələndə hamıyla salamlaşırdım, birdən yeni sima gördüm. O sima məni rahat buraxmadı. Bir il yarım vaxt keçdi, mən nə isə deməsaid. Açığı mənimlə söhbət belə etmək istəmədi, çünki işçim idi. Məcbur olub atasının nömrəsini tapdım, dedim, a kişi, gəl, səninlə söhbətim var. Düzdür, Günayla aramızda yaş fərqi çoxdur. Amma məşhur mahnıda da deyildiyi kimi, yaşın nə fərqi var ki? Əsas odur yaxşı anadır, gözəl ev xanımıdır. Son zamanlar mən onlarsız hansısa səyahətə getmirəm, çox darıxıram".

**Həyat yoldaşı isə Səyavuş bəy haqqında bunları söyləyib:** "O çox evə bağlı insandır. Yaş fərqi bəzən çətinliklər yaradır. Siyavuş hansısa məsələni fərqli və dərin düşünür. Mən artıq həyata onun gözündən baxmağı öyrənmişəm. Üç il hisslərini söyləmək üçün gözlədi. Əvvəldən mən də onun baxışından, münasibətindən duymuşdum. Açığı, təklif gözləyirdim. Amma dedim bir az naz edim. Onu iş ortamında tanıyırdım. Tələbələrlə, işçilərlə səmimi münasibəti ona bağlayıb məni və gözümdə ucaldıb".

**Samirə Ərəblinski**

# Valideynlərinizin qədrini bilin!

*Aktyor Elcan Rəsulov paylaşımı ilə hər kəsi kövrəldib*

Aktyor Elcan Rəsulov instaqram paylaşımı ilə hər kəsi kövrəldib.



"Şərq"in məlumatına görə, o, atasının fotosunu paylaşaraq onun ölüm ildönümü olduğunu söyləyib.
Aktyor məlum postda bunları yazıb:
"Bu cavan oğlan atam Etibardır. Düz 13 il öncə elə bu gün 49 yaşında dünyasını dəyişib. O zamana qədər 13 rəqəminə nifrət edirdim. Atam vəfat edəndə təsdiqini tapdı. Sonralar tarix mənə on üç rəqəmi ilə bağlı xoş günlər yaşatmağa çalışsa da, onu bağışlamıram. Həm də siqaret çəkməyə ilk başladığım gündür, atasız qaldığım gün. Daşıya bilməyəcəyim həyat yükünün bir anda belimə qoyulduğu gündür. Allah bilir həmin rəqəm mənə daha hansı ziyanları vurub. Ondan sonra həyata, insanlara baxışım dəyişdi. O qədər şərəfsiz, mənliksiz, yaxud da səxavətli, mərd, dürüst insan gördüm ki, artıq doğmanı, yadı ayırd edə bilirəm. Yaxın qohumumu yad, uzaq insanı da doğma etməyi bacarıram. Valideynlərinizin qədrini bilin. Görmədiyiniz elə ziyanların qarşısını alırlar ki, tək qalanda onlara sinə gərmək çətin olur. Anamı bir günlük blok elədim ki, paylaşımımı görməsin".

**Samirə**

# "Övladıma görə ona dillənmirəm"

*Tünzalənin keçmiş əri: "Susmağım ona cavab olsun"*



Xalq artisti Tünzalə Ağayevanın keçmiş həyat yoldaşı, rejissor Rəhman Əliyev barədə dedikləri cavabsız qalmayıb.

Lent.az xəbər verir ki, R.Əliyev müğənni haqda suallara belə cavab verib:
"İndi o qadını düşünməyə, müzakirə etməyə zamanım yoxdur. Onun mənimlə bağlı sonuncu açıqlaması sosial şəbəkələrdə paylaşıldı. Həmin paylaşımların altında yazılan rəylərə diqqət yetirsəniz, görəcəksiniz ki, insanlar mənim yerimə onun cavabını verib. Bu gün ona elə sözlər, elə açıqlamalar verərdim ki... Amma ortada qızımız var. Övladıma görə ona dillənmirəm. Susmağım, artıq sözlər deməməyim ona cavab olsun".
Qeyd edək ki, T.Ağayeva "Dəyişən cavab" verilişində keçmiş həyat yoldaşı R.Əliyev barədə bu sözləri demişdi:
"O, övladının anası, ömür-gün yoldaşı Tünzalənin şəxsiyyətinə hörmətsiz yanaşdı. Bax, həmin anda ondan təmamilə qırıldım. Çox ehtiyatsız, kişiyə yaraşmayan bir hərəkət etdi. "Mənlə yaşamırdısa, həyat məhv olmalıdı" deyə, düşünürdü. Mənim haqqımda mediada xəbərlər yazdırırdı, onlara pul verirdi, imicimə xələl gətirmək istəyirdi".

## Xalq artistlərinin geyimləri müzakirə olunub

Xalq artistləri Aygün Kazımova və Zülfiyyə Xanbabayeva bahalı geyimləri ilə gündəmə gəliblər.

Onların günlük stillərindəki brend paltarlarının qiymətləri hər kəsi təəccübləndirib.
"Şərq" xəbər verir ki, Zülfiyyə Xanbabayevanın geyindiyi "Fendi" markalı botların qiyməti 1870 AZN-dir. Eyni brend olan eynəyi isə təxminən 807 manatdır. Çantasının markası "LANVİN"-dir və qiyməti 3755 AZN-dir.
Aygün Kazımovanın isə botları "Real Mr Valentino"dandır və təxminən 1946 manatdır. Çantası isə "Louis Vuitton" brendindəndir və 4624 AZN-dir. Eynəyi isə "Dolce Gabbana"dandır və 289 manatdır.

**Samirə**

# Əvvəlcə bol su için!

*Peyvənd vurdurmağa ac getmək olmaz*

Hazırda əhalini yoluxmadan daha artıq peyvəndlənmə maraqlandırır. Bu lap tacir Əsgərin başına gələn "oxu!", "oxuma!"ya bənzəyir. Hər halda iki od arasında qalanlarla yanaşı bir yolu seçib peyvənd vurduranlar da çoxdur.

Bəs peyvənddən əvvəl və sonra nələr olar, nələr olmaz? Xüsusən də insanlar "peyvənndən əvvəl qidalanmaq doğrudurmu" və "peyvənddən sonra necə qidalanaq, necə davranaq" suallarına cavab axtarır. Mütəxəssislər həm peyvənddən öncə, həm də sonra düzgün qidalanmanın və düzgün davranışların peyvəndin müsbət təsirinə kömək etdiyini bildirir. İlk növbədə bunu söyləməliyik ki, xarici mənbələrdə iltihab əleyhinə qidaların və ya C vitamini kimi preparatların COVİD-19 peyvəndini daha effektli hala gətirəcəyinə dair araşdırmalar hələ ki, yetərli deyil. Lakin orqanizmi qidalandıran ərzaqlar və C vitamininin immunsistemi gücləndirdiyi bəllidir. Harvard Universitetinin professoru Vilyam Li "COVİD-19" peyvəndinin peyvəndə qədər necə qidalanırdısa, peyvənddən sonra da o cür davam edən insanlar üzərində test edildiyini və hansısa xüsusi hazırlıq olmadan da peydəndlərin müsbət təsir göstərdiyinin müəyyənləşdiyini bildirib. Bu baxımdan, professor tövsiyə edir ki, peyvənd vurdurmağa hazırlaşanlar, guya, peyvəndin təsirini artıracaq hər hansı qidaları və ya qida əlavələrini qəbul etməkdən çəkinsinlər. Professor "yalnız peyvənd səbəbilə deyil, prinsip etibarilə "Fast food" kimi işlənmiş qidalar və atışdırmalıq olaraq tərcih etdiyimiz paket məhsullarının istifadəsini dayandırın. Onların tərkibindəki yağlar orqanizmdə iltihaba səbəb olur", deyib. Professor məsləhət görür; fındıq, süzmə zeytun yağı, badam, balıq, meyvə və tərəvəz kimi qidalar qəbul edin. Peyvənddən sonra yüngül və sizə rahatlıq gətirəcək qida istəsəniz, ən doğru seçim toyuq bulyonundan hazırlanmış, içinə nazik, tel vermişel və tərəvəzlər əlavə edilmiş şorbadır. Bu, ən ideal qidadır.



## Əcnəbi mütəxəssislərin məsləhətlərində böyük fayda var

Mütəxəssislər peyvənd vurdurmağa ac halda getmənin mənfi təsiri olacağını bildirir. İynə qorxusundan, həyəcandan mədə bulantısı yaşana bilər. Başgicəllənməsi olar. Doktor Malinou "Mənim təklifim, qatıqla meyvə, yaxud yumurta ilə meyvə kimi ev şəraitində hazırlanan, mümkün olduğu qədər az qaynadılmış bir şeylər yeməkdir", deyir. Peyvənddən sonra qol ağrıları, azacıq hərarət yüksəlməsi, ümumi əzginlik hiss edə bilərsiniz. Mütəxəssislər bu əlamətlərin immunsistemin çalışdığı, fəaliyyətdə olduğu anlamına gəldiyini bildirir. Əlamətlər sizə əziyyət verirsə, həkimdən məsləhət almalı, onun ağrıkəsici istifadəsinə icazə verib-vermədiyini öyrənməlisiniz.
Mütəxəssislər "COVİD" peyvəndi vurdurmadan öncə və sonra bol miqdarda su içməyi məsləhət görür. Bu, orqanizmə dəstək verəcək. Həmçinin, bədənin suya tələbatını ödəmək üçün meyvə-tərəvəz, ət bulyonu kimi qidalar da qəbul edilə bilər. Ümumiyyətlə, təkcə peyvənd sırasında deyil, hər zaman yaşıl tərəvəzlərə üstünlük verilməlidir. Xüsusən də ispanaq kimi enli yarpaqlı tərəvəzlər. Həmçinin, yerkökü, brokoli A vitamini ilə zəngindir. Limon, quşburnu, yaşıl bibər, naringi (mandarin), portağal, böyürtkən, qara üzüm, turp, cəfəri C vitamini deposudur. Fındıq, fıstıq, püstə, ceviz, balıq da E vitamini qaynağıdır.
Peyvənddən bir gün əvvəl və sonra spirtli içkidən uzaq durmaq məsləhətdir. Çünki spirtli içki orqanizmi basqı altında saxlayır və bədəndə susuzluğu artırır. Spirtli içkilər ağ ciyərdə oksigen faizini azaldır, orqanizmin infeksiyalara qarşı müqavimətini zəiflədir.
Peyvənddən əvvəl yaxşıca yatın, yuxunuzu alın. Yuxusuzluq peyvəndin təsirini 70 faiz azaldır. Peyvənd olunduqdan sonra özünüzü yaxşı hiss edirsinizsə, qaçışa çıxa bilərsiniz. Əgər yorğunluq hiss edirsinizsə, evdə qalın və dincəlin. Yağlı, şirin qidalardan uzaq durun. Bal, daha çox bişməmiş, çiy meyvə-tərəvəz yeməyə çalışın.

**Məlahət Rzayeva**

# Stalinin həyatında neçə qadın olub?

*Qəddar rəhbər sevgi yaşadığı insanlara da göz işığı verməyib*

(əvvəli səh.16)



Stalin bir də 12 il sonra - 1919-cu ildə ailə qurur. Onun ikinci həyat yoldaşı o zaman bolşevik partiyasının üzvü olan Nadejda Alliluyeva idi. Onlar nikah bağlayarkən Nadejdanın 17, Stalininsə artıq 40 yaşı vardı. Bu nikahdan onların 2 övladı - Vasili və Svetlana dünyaya gəlir. Bu nikah 13 il davam edir - 1932-ci ildə Nadejda Alliluyeva özünə qəsd edənədək. Onun ölümü ilə bağlı da müxtəlif fərziyyələr var. Bəzi mənbələr Nadejda Alliluyevanın Stalinin "cəza maşını"na dözməyərək ruhi sarsıntılar keçirdiyini və növbəti ruhi sarsıntı zamanı, Kremldə təşkil olunmuş ziyafət zamanı gözdən uzağa çəkilərək özünü güllə ilə vurduğunu, bəzi mənbələrsə öz əcəli ilə öldüyünü bildirir.

Qəribə burasıdır ki, Stalinin qızı Svetlana anasının soyadını daşıyırdı - Alliluyeva. Onun 1966-cı ildə Hindistanda səfərdə olarkən ABŞ səfirliyinə gedib siyasi sığınacaq istəməsi və ömrünü orada başa vurması da məlum faktlardır.

Stalinin siyasi fəaliyyəti, dövlət idarəçiliyindəki hədsiz sərtliyi, qəddarlığı onun qadınlarla soyuq münasibətlərdə olması, qadınlara qarşı marağının olmaması təəssüratı yaradır. Lakin bu heç də belə deyil. Sovet İttifaqının ən zəhmli, ən qəddar hesab edilən rəhbəri də qadın cazibəsi önündə təksilah vəziyyətdə qalıbmış. Müxtəlif mənbələr Stalinin həm ali rəhbərlik dövrünədək, həm də ali rəhbər olduğu dövrlərdə sevgi romanları yaşadığını xəbər verir.

Hələ XX əsrin başlanğıcında - Stalin Arxangelsk vilayətində sürgündə olarkən kilsə xidmətçisinin qızı Matryona Kuzakova ilə tanış olub. Qadının həyat yoldaşı vəfat etdiyindən gecəgündüz çalışırmış. Stalin qadına kömək etməyə başlayıb və beləcə həyat yoldaşına ilk dəfə xəyanət edib. Bir müddət sonra Matryonanın oğlu dünyaya gəlib. Stalin artıq orda deyildi. Qohum-qonşu isə körpənin bacı və qardaşlarından fərqləndiyini görürdülər. Matryonanın əvvəlki uşaqları sarışın idi, bu uşaq isə qaraşın. Adını Konstantin qoyurlar. Atasının adını isə ananın atasının adını yazdırırlar - Stepanoviç. Maraqlıdır ki, Konstantin Stepanoviç Kuzakob 1970-ci illərdə Moskvaya gəlib. Və "Şabalovka" TV studiyasında ədəbi redaktor kimi işləməyə başlayıb. O zaman ətrafdakılar dedi-qodu edirmiş ki, o, Stalinin oğludur. Konstantin isə həqiqəti yalnız 1996-cı ildə təsdiqlədi. Atasını gizli saxlamasının səbəbini isə belə izah etdi ki, ondan bu haqda danışmamaqla bağlı yazılı iltizam alıblar. Hətta 1947-ci ildə Konstantin Kuzakovu güllələmək istəyiblər. Lakin görünür, Stalinlə qan bağlılığı onu xilas edib.

1913-1916-cı illərdə Stalin növbəti dəfə sürgündə olub. Bu dəfə Turuxanski vilayətinin Kureyka kəndində. O, yetim qardaş-bacı Pereprıginlərin evində qalıb. 14 yaşlı Lidiya Pereprıgina ilə də elə burada münasibət saxlamağa başlayıb. Yetkinlik yaşına çatmamış qızla intim əlaqədə olduğuna görə Stalinə cinayət işi açmaq istəyiblər. Lakin o, qızla evlənəcəyini deyib və həbsdən yaxa qurtarıb. Amma sonra sözünün üstündə dayanmayıb. Və Lidiyanı ataraq çıxıb gedib. Lidiyanın da oğlu dünyaya gəlib - Aleksandr. Sonra qadın kənd sakini Yakov Davıdovla ailə qurub. Aleksandr da beləcə Davıdov olub. 1935-ci ildə ozamankı "NKVD" əməkdaşları Aleksandrdan əsl atasının kim olmasını açıqlamayacağı barədə yazılı iltizam alıblar. Aleksandr Davıdov - Stalinin "karyerası" Novokuznetskdə yeməkxana müdiri olmaqla yekunlaşıb.

Stalinin zəif cinsə marağı təkcə kənd qadınları ilə bitmir. Deyilənə görə, onun məşhur balerina Olqa Lepeşinskaya və Marina Semyenova, həmçinin müğənnilər Nataliya Şpiller və Valeriya Barsova ilə də yaxın münasibətləri olub. Dahi rəhbərin "Bolşoy teatr"ın (Böyük Teatr) solisti Vera Davıdova ilə də isti münasibətlərinin olduğu məlumdur. Hərçənd, Davıdovanın qohumları bunu təkzib edir, lakin həyatı və solistlik karyerası boyunca həddən artıq mükafatlar, təltiflər alması, böyük imtiyazlara sahib olması bi faktın həqiqiliyini dəstəkləməyə imkan verir.

Stalinin sonuncu məhəbbəti isə Valentina İstomina idi. Bu qadın 1935-ci ildən taki Stalinin ölümünədək onun yanında olub. Bunu o zamanın partiya rəhbərlərindən Molotov təsdiqləyib. İstomina Stalinin məişət-təsərrüfat məsələlərinə nəzarət edirmiş. Daim rəhbərin yanında olurmuş. Stalin vəfat etdikdən sonra İstominaya fərdi təqaüd təyin edilmişdi. Bu qadının övladı yox idi. Qardaşı oğlunu himayəsinə götürübmüş. Valentina İstomina 1995-ci ildə vəfat edib.

**Hazırladı: Məlahət**

# "İmperator" qızına həsrət qalıb

*Anası uşağı gizlədir?*



"İmperator" 7 yaşlı övladına həsrət qalıb. Həyatına edilən sui-qəsddən sonra 2011-ci ildə Ayşəgül Yıldızla evlənən İbrahim Tatlısəsin bu nikahdan qızı Ada dünyaya gəlmişdi.

Lakin Tatlısəslə Ayşəgül Yıldız 2 il sonra boşandılar. "Şərq" xəbər verir ki, bir müddət əvvəl atasının şou-proqramına qonaq olan kiçik Adanın çəkingən davranışları, atasının təkidlə yanına çağırmasına baxmayaraq qorxa-qorxa səhnəyə qalxması izləcilərin nəzərindən qaçmayıb.

Bununla da uşağın anası sosial media istifadəçilərinin tənqidlərinə tuş gəlib. İbrahim Tatlısəsin pərəstişkarları Ayşəgül Yıldızın övladını atasından gizlətdiyi, görüşmələrinə icazə vermədiyi fikrindədirlər.

Zatən, 7 yaşlı Ada "atanla niyə görüşmürsən" sualına cavabında "anam gətirmir", demişdi. Bu günlərdə A.Yıldız tənqidlərə cavab verərək kiçik qızın davranışlarının bu qədər müzakirəyə çıxarılmasını düzgün hesab etmədiyini deyib:

"O, bir körpə. Hələ 7 yaşı var. İlk dəfə idi proqrama gəlmişdi. Studiya onu qorxutdu. Atasını gec-gec gördüyü üçün ondan utanır, çəkinir". 40 yaşlı Ayşəgül Yıldız "yenə övladınızın olmasını istərdinizmi" sualına "kaş ki, təkbaşına bacarsam" cavabını verib.

**Məlahət**

## Qadını bıçaqladılar

*Qonşular arasında 1 il əvvəl zibil qabı məsələsi üzündən mübahisə başlayıb*



Türkiyənin Antalya şəhərində Meral Yıldırım adlı bir qadın qonşusu olan həmcinsi tərəfindən bıçaqlanıb.

Meral Yıldırımın həyat yoldaşı deyir ki, təhdidlər hələ də davam edir və nə edəcəyimizi bilmirik.

Antalyanın Döşemealtı qəsəbəsində Aşağıoba məhəlləsində yaşayan Meral və İbrahim Yıldırım cütlüyü ilə qadın qonşuları arasında 1 il əvvəl zibil qabı məsələsi üzündən mübahisə başlayıb. Keçən həftənin şənbə günü qazlarını tövlədə boynundan asılı görən İbrahim Yıldırım hadisə ilə bağlı polisə şikayət edib. Ertəsi gün isə İbrahim Yıldırım işdə olarkən heyvanları yemləmək üçün tövləyə enən həyat yoldaşı Meral Yıldırım qadın qonşusu tərəfindən döyülüb və bud nahiyəsindən bıçaq xəsarəti alıb. Sağlıq işçilərinin köməyi ilə ilkin müdaxilə edilərək xəstəxanaya yerləşdirilən qadın müalicəsi bitdikdən sonra evə aparılıb. Polis əməkdaşları tərəfindən tutulan təqsirləndirilən şəxs isə ifadəsindən sonra sərbəst buraxılıb.

**Aytac Al**

### Elanlar

Bakı Mühəndislik Universiteti tərəfindən Qurban Mirzaid oğlu Qafarzadəyə verilmiş C №030573 nömrəli diplomun qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Texniki Universiteti tərəfindən Aslanov Rafiq Rəhim oğlu və Salahov Kalam Salam oğlunun adlarına verilmiş diplomlar itdiyi üçün etibarsız sayılır.

Respublika Əmlak Komitəsi tərəfindən Əsgərov Ələddin Xanhüseyn oğlunun adına verilmiş Şıxov ərazisindəki 3 sot torpaq sahəsinin çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 637

## Məşhur aparıcı malikanəsini 47 milyona satıb



Amerikalı aktrisa-aparıcı Ellen Deceneres Kaliforniya ştatının Beverli-Hillz şəhərindəki daha bir malikanəsini satıb.

Axşam.az xəbər verir ki, aparıcı açıq havada mətbəxi, trenajor zalı, spa mərkəzi, qonaqlar üçün ayrıca evi və tennis kortu olan villasını 47 milyon dollara satıb.

*Qeyd edək ki, aparıcı evi 2 il əvvəl "Maroon 5" qrupunun solisti Adam Levindən 45 milyon dollara almışdı. Adamdan əvvəl isə evin sahibi əfsanəvi tennisçi Pit Sampras olub.*

## Aktrisa yuxuda dünyasını dəyişdi



Gerren Taylor kimi tanınan Aşley Taylor Gerren, yatarkən dünyasını dəyişib.

"Şərq" xəbər verir ki, gənc modelin ailəsi mətbuata açıqlama verməyib.

30 yaşlı Gerrenin kəpənək xəstəliyi olduğu məlum idi. Ancaq ölüm səbəbi ilə bağlı hələ məlumat yoxdur.

**Aygün**

## Ortaq oldu

*Mesud Özil Meksika klubunu alıb*



"Fənərbaxça"nın futbolçusu Məsut Özil Meksika klublarından "Necaxa"nı alıb.

Bununla da 32 yaşlı idmançı klubun digər sahibləri olan xarici məşhurlarla şərik olub. Onlar arasında aktrisa Eva Lonqoriya, model Keyt Apton, beysbol ulduzu Castin Verlander və amerikalı iş adamları Ol Tailis, Sem Porter də var.

*Qeyd edək ki, Mesud Meksikada klub alan ilk türkiyəlidir.*

## Yeni serialına görə 5 min səhifəlik kitab oxudu




"TRT1" telekanalında yayımlanması planlaşdırılan "Barbaros" serialının çəkilişləri başlayıb.

Baş rollarını Engin Altan Düzyatan ilə Ulaş Tuna Astepenin paylaşdığı ekran işinin ilk görüntüləri də yayımlanıb.

Engin Altan Düzyatan yeni roluna hazırlaşmaq üçün 5 min səhifəlik kitab oxuduğunu bildirib.

*Qeyd edək ki, aktyor ekran işində Osmanlı dövlətinin ilk gəmi kapitanı Barbaros Hayrettin Paşa obrazına həyat verəcək.*





# Stalinin həyatında neçə qadın olub?

*Qəddar rəhbər sevgi yaşadığı insanlara da göz işığı verməyib*



**SSRİ-nin ən qəddar rəhbəri Stalinin intim həyatı üzərindəki sirr pərdəsi zaman-zaman qaldırılıb. Və "dahi rəhbər"in qadınlara qarşı heç də soyuq olmadığı üzə çıxıb.**

Sovet rejiminin qorxunc liderinin həyatında neçə qadın olub? Say kiçik deyil. Sadəcə, bu qadınlar barədə rəsmi və qeyri-rəsmi, şayiə xarakterli məlumatlar da var.

Məlumdur ki, İosif Vissarionoviç Stalin həyatında iki dəfə rəsmi nikah bağlayıb. Onun ilk evliliyi 1904-cü ildə Yekaterina Svanidze ilə olub. Onlar evlənən zaman Yekaterinanın 16, Stalininsə 26 yaşı vardı. Bu, Stalinin inqilabçı kimi fəaliyyət göstərdiyi illər idi. Bu nikahdan onların oğlu dünyaya gəlib, adını Yakov qoyublar. Kobanın həyat yoldaşı 3 il sonra tif xəstəliyindən *(bəzi mənbələrdə vərəm xəstəliyi qeyd edilir)* vəfat edib.

*(davamı səh. 15)*

## Nadir qan qrupu

*Qızıl qan - Dünyada cəmi 43 adamdadır*



Tibbdə 8 tip qan məlumdur, onlar da öz növbələrində yarımtiplərə bölünür. Lakin dünyada elə bir nadir qan qrupu da var ki, bu qan qrupunun daşıyıcısı olan insanı tapmaq belə müşküldür.

Yer kürəsində yalnız 42 adam bu qanın daşıyıcısıdır.

Medicina.az xəbər verir ki, bu qan qrupu klassifikasiya sisteminə daxil deyil. Lakin elmi baxımdan o əvəzsiz və qiymətlidir.

Bu qan sahibləri üçün bəzi təhlükələr gətirir. Çünki bu insanlara qan donoru tapmaq mümkün deyil. Onları əməliyyat etmək də risklidir.

Qızıl qanıda digər qruplarda olan antigenlər yoxdur. İlk dəfə bu qan barədə 1961-ci ildə yazılıb və Avstryaliyada yerli bir sakində tapılıb.

Bundan öncə alimlər belə hesab edirdi ki, bu qan tipi ilə doğulan uşağın sağ qalıb böyüməsi mümkün deyil. Çünki Rh agenti olmayan qan hətta ana bətnində belə dölü sağ saxlamaz.

Lakin həyat göstərdi ki, bu qan qrupunda olan insanlar sağ qalırmış.

Bu qan qrupu irsi genlər vasitəsilə ötürülür. Lakin o hər adamda olmur. Adətən belə qan qrupunu daşıyan uşağın ata-anasında adi qan tipi olub. O, bu qan genini bəlkə də əsrlər öncə yaşamış əcdadından alır.

Tibbi baxımdan bu qrup qiymətsizdir, çünki məhz bu qan qrupu ən qədim və ən təmiz hesab olunur. Bu qan çox xəstəliklərə çarə ola bilər. Amma təəssüf ki, bu qanın daşıyıcısı olan insanlar cəmi 43 nəfərdir. Alimlər digər qan qruplarından biri üzərində işləyib, onu antigenlərdən təmizləyib qızıl qana bənzətmək üzərində işləyirlər.

## "Rolls-Royce" satış rekordu vurdu



"Rolls-Royce Motor Cars" 2021-ci ilin birinci rübündə 116 illik tarixinin ən yüksək satış miqdarına nail olub.

Ted.az bildirir ki, hazırda "BMW"-yə məxsus olan "Rolls-Royce" şirkəti hesabat dövründə 1 380 avtomobil satıb ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 62 faiz çoxdur. Əvvəlki rekord isə 2019-cu ildə əldə edilmişdi.

Ən çox satılan qiyməti 335 min ABŞ dollarından başlayan, amma adətən 400 min dollardan baha satılan "Cullinan" tam ölçülü SUV modeli olduğu bildirilir. Həmçinin 332 min dollardan başlayan "Ghost" modelinə də maraq yüksəkdir.

Rekord satışların səbəbi kimi pandemiya dövründə bazarlardakı artım nəticəsində varidatları daha da artmış zənginlərin pul xərcləməyə meylli olmaları göstərilir. Belə ki, "Rolls-Royce" ilin ikinci yarısında da sifarişlərdə artım gözlədiklərini açıqlayıb. Həmçinin "Bentley", "Lamborhini" kimi başqa luxury avtomobil istehsalçıları da son vaxtlar satışlarını artırıb.